www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 sentyabr 2014-cü il Cümə axşamı № 220 (5930) Qiymәti 40 qәpik

Xəbər

## Bakıda qətliam kimi yol qəzası- 6 ölü

yazısı səh.15-də

Gündəm

### Müxalif partiyalar Demokratiyanı Müdafiə Xartiyası imzaladı



BHMM-nin toplantısında yerli və beynəlxalq təşkilatlara müraciət ünvanlanıb

yazısı səh.6-da

### Kreml Qarabağ məsələsində şantaj siyasətinə qayıdır

yazısı səh.9-da

### YAP-çı deputat iki naziri "vurdu"

yazısı səh.10-da

### Gəncənin icra başçısı mollalara tapşırıq verdi

yazısı səh.10-da

### Azərbaycan və Ermənistan prezidentləri NATO sammitində görüşə bilər

yazısı səh.7-də

### Paytaxtın məşhur restoranındakı qanlı davanın təfərrüatları

yazısı səh.4-də

### DİN-dən Hüseyn Abdullayev açıqlaması: "Axtarışdadır..."

yazısı səh.13-də

### Pərviz Həşimliyə hələ də ailəsi ilə açıq görüş verilmir

yazısı səh.12-də

### Türkiyə-Azərbaycan münasibətlərində gizli minalar - İŞİD və İran

yazısı səh.4-də

### İki oğlu İŞİD-ə qoşulan atadan tükürpədici açıqlamalar

yazısı səh.12-də

### "Star" SOCAR-ın media qrupdakı bütün payını aldı

yazısı səh.8-də

### Dünyanın ən rahat "çörək qazanma" üsulları haqda nə bilirik?

yazısı səh.15-də

Yuxarıdan modernizasiya- vintlər bərkidilir, yol "təmizlənir"

# İQTİDAR AZƏRBAYCANI YENİ MƏRHƏLƏYƏ DAŞIYIR...

Müxalifət və iqtidarın bildiyi mübhəm bir süreci yaşayırıq; "Azərbaycan fərqli bir mərhələyə - "idarə olunan demokratiyaya" qədəm qoymaqdadır"; "Dövlət başçısı İlham Əliyev buna artıq imza atıb..."; niyə heç kim "demokratiya şəhidi" olmaq istəmir...

yazısı səh.5-də



## Ərdoğanın Bakı səfərində mühüm mesajlar verildi

"Heydər Əliyev" ordeni ilə təltif olunan Türkiyə prezidenti Dağlıq Qarabağ münaqişəsinin həllini tələb etdi: "Əgər Azərbaycanla Ermənistan arasında problem həll olunsa, Türkiyə və Ermənistan arasındakı problem də həllini tapacaq. Əks halda, Türkiyə və Ermənistan arasındakı durum indiki kimi davam edəcək"

yazısı səh.3-də



### "AST Telman" borc içində batır

yazısı səh.8-də



### Deputat Sevinc Hüseynovanın adı dələduzluqda hallandı

yazısı səh.13-də



Daşqın Ağalarlı

### Gürcüstan Elçibəy hakimiyyətinin nazir müavinini həbsdən buraxdı

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014



## Putinlə Poroşenko telefonla nədən danışıblar?

**Rusiya və Ukrayna prezidentləri Vladimir Putinlə Pyotr Poroşenko telefonla danışıblar. "Mediaforum" saytının məlumatına görə, telefon söhbəti barədə rəsmi açıqlama verən Rusiya prezidentinin sözçüsü Dmitri Peskov dövlət başçılarının Ukraynadakı hərbi və humanitar böhranı müzakirə etdiklərini bildirib: "Dövlət başçıları Ukraynanın cənub-şərqində qan tökülməsinin qarşısının daha tez alınması üçün ilk növbədə hansı tədbirlərin görülməsi məsələlərini müzakirə ediblər. Prezidentlərin böhran vəziyyətindən çıxmağın mümkün yolları haqda fikirləri əhəmiyyətli dərəcədə üst-üstə düşür".**

Telefon danışığı haqda əvvəlcə Kreml məlumat yayıb.

Məlumatda deyilir ki, prezidentlər Vladimir Putin və Pyotr Poroşenko Ukraynanın şərqindəki vəziyyəti və böhrandan çıxmaq üçün atılmalı olan addımları müzakirə ediblər.

"Prezidentlərin mövqeyi bir çox məsələlərdə üst-üstə düşüb. Putin və Poroşenko Ukraynanın şərqində atəşin dayandırılması barədə razılığa gəliblər" - deyə Rusiya prezidentinin sözçüsü Dmitri Peskov bildirib.

"Rusiya və Ukrayna prezidentləri Ukraynada atəşkəs barədə razılıq əldə etməyiblər, çünki Rusiya münaqişənin tərəfi deyil".

APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, Dmitri Peskov açıqlama verib. D. Peskov bildirib ki, Putin və Poroşenko doğrudan da Ukrayna qüvvələri və ölkənin şərqindəki "könüllü dəstələr" arasında atəşkəsin əldə olunması barədə addımları müzakirə ediblər: "Lakin Rusiya bu barədə razılıq əldə edə bilməz, çünki münaqişənin tərəfi deyil".

Daha sonra Ukrayna prezidentinin rəsmi saytı telefon danışığı barədə məlumat yayıb. Məlumata görə, prezidentlər atəşkəs razılaşması əldə ediblər. Bu razılaşmaya əsasən Poroşenko Ukraynanın şərqində bütün hərbi əməliyyatların dayandırılmasına göstəriş verib.

## İrəvan "Putin İttifaqı"na qarşı etiraza qalxdı

**Ermənistanda qanuni hökumət olmayana qədər Rusiya kimi ölkələr daim onu idarə etməyə çalışacaq və ya onu Gömrük İttifaqı (Gİ) kimi qurumlara daxil olmağa məcbur edəcəklər.**

Azvision.az-ın Ermənistan KİV-nə istinadən verdiyi məlumata görə, bu barədə İrəvanda keçirilən etiraz aksiyasında "Salam İrəvan" fraksiyasının üzvü David Sanasaryan bildirib.

Yürüş paytaxt İrəvanın Azadlıq meydanından başlayıb. "No Putin, No Cry" və "Go Home Putin, You are Drunk" şüarlarını tutan iştirakçılar Ermənistan prezidentinin iqamətgahına doğru hərəkət ediblər.

Etirazçılar aksiyanı Rusiya baş naziri Dmitri Medvedyevin Ermənistana səfəri zamanı keçirmək istəyiblər, lakin baş nazirin bu ölkəyə səfəri təxirə salındığından aksiya dünən keçirilib.

Xatırladaq ki, dünən Serj Sərkisyanının Ermənistanın Gömrük İttifaqına qoşulmaq istədiyi barədə səsləndirdiyi bəyanatdan bir il keçib.

## Azərbaycan Rusiyanın qazını kəsdi

**Azərbaycan Rusiyaya qazın nəqlini yenidən dayandırıb. Virtualaz.org saytı "İnterfaksa" istinadən xəbər verir ki, Rusiyaya ixrac olunan Azərbaycan qazı təmir işləri ilə əlaqədar olaraq kəsilib.**

Azərbaycan Dövlət Neft Şirkəti qaz verilişinin nə vaxt bərpa olunacağını dəqiqləşdirməyib.

Qeyd edək ki, qazın nəqli təmir işləri səbəbindən artıq ikinci dəfədir dayandırılır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Redaksiyaların "Qasid" problemi...

## "Yeni Müsavat" və "Azadlıq" firmadan borcunu ala bilmir, qəzetlər məhkəməyə hazırlaşır

**Ötən ilin sonlarından daha da pisləşən ölkə mətbuatının durumu artıq acınacaqlı həddədir. "Qasid" Yayım Firması qəzetlərə olan borcunu ödəmək istəmir, əldəyayım sıradan çıxarılıb, rəsmilərin problemin həlli istiqamətində görməli olduğu işlər isə sadəcə sözdədir.**




Qeyd edək ki, uzun müddətdir "Qasid"lə "Yeni Müsavat" qəzeti arasında davam edən borc məsələsi pik həddə çatıb. Belə ki, "Qasid" firmasının qəzetə minlərlə manat borcu olmasına rəğmən son bir aydır heç bir ödəniş etmir. **"Yeni Müsavat"ın baş direktoru Ələsgər Süleymanovun** sözlərinə görə, bir ay bundan əvvələ qədər "Qasid"dən hər həftə cüzi də olsa satışdan gələn gəlirin müəyyən qismini almaq mümkün idi: "Amma son bir aydır ki, ümumiyyətlə heç nə ala bilmirik. Bu da o deməkdir ki, "Qasid" artıq ödəniş qabiliyyətini tamam itirib. Onlar bunu belə izah edir ki, köşkləri götürülür, satış imkanları məhdudlaşdırılır. Amma biz onlardan satışın niyə zəiflədiyini soruşmuruq, satılan qəzetin satış faizini istəyirik. Bunu da ödəyə bilmirlərsə, deməli, vəziyyət çox ümidsizdir".

**Ə.Süleymanovun sözlərinə görə, vəziyyətin bu həddə gəlib çıxması da qəzet rəhbərliyini məcbur edir ki, firmaya qəzet verməyi tamam dayandırsın:** "Amma nəzərə alanda ki, şəhərdə qəzet yayımı onsuz da azdır və əldəyayım da yox həddindədir, bunu etmirik. Lakin tirajı həddindən artıq azaltmışıq, əvvəlki ilə müqayisədə bu göstərici 10 dəfəyə bərabərdir. Bu vəziyyət də təbii ki, bizi qane etmir. Sonuncu dəfəki müraciətimiz zamanı isə onlar bizə izah etdilər ki, "Qasid"də əməkdaşlar arasında ixtisarlar olub və həmin şəxslərin haqq-hesabı qalıb. Bu məqamda onlar bizdən zaman istədilər ki, həmin işçilərlə haqq-hesablarını bağlaya bilsinlər. Bundan sonra redaksiyalara müəyyən ödənişlər edəcəklərini söylədilər. Biz də bunu kifayət qədər gözlədik. Yenə də ortada bir şey yoxdur. Son məqam olaraq qərara gəlmişik ki, onlarla üzləşdirmə aktı aparaq və məhkəməyə verək. Başqa yolumuz yoxdur, orda qalan vəsaitimizi hansısa yolla almalıyıq. Çünki bizim də verəcəklərimiz var".

**"Qasid" firmasının "Azadlıq" qəzetinə də külli miqdarda borcu var və şirkət borcu ödəməkdən imtina edir. "Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov isə bildirir ki, qəzetin vəziyyəti ürəkaçan deyil:** "Heç bir irəliləyiş yoxdur. "Qasid" borcumuzu ödəmədiyinə görə tirajı əhəmiyyətli dərəcədə azaltmışıq. Amma yenə də borclar bir qədər artıb. Axırıncı dəfə biz firmaya gedəndə hörmətsizliklə qarşılaşdıq, qarşımıza çıxan olmadı. Dövlət qurumlarından heç bir müdafiə, kömək yoxdur. Mətbuat Şurası da problemimizlə bağlı müraciət etmişdi, ona da cavab verilərsə də, nəticəsi yoxdur".

❑ **Röya RƏFİYEVA**



Mübariz Qurbanlı

## "Tutduğum vəzifə partiyadakı işimə mane olmur"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə sədr təyin olunan YAP icra katibinin müavini Mübariz Qurbanlı təyinatı ilə bağlı partiyada tutduğu vəzifədən getməsi barədə məsələyə münasibət bildirib.**

M. Qurbanlı APA -ya açıqlamasında deyib ki, tutduğu vəzifə onun partiyadakı vəzifəsinə qəti mane olmur. O qeyd edib ki, hazırda da YAP-da tutduğu vəzifəni maneəsiz davam etdirir və bu, komitə sədri kimi onun işini yerinə yetirməsinə maneçilik törətmir: "Bütün hallarda bu məsələ partiya rəhbərindən asılıdır. Nə qədər məsləhət görsə, o vəzifədə davam edəcəyəm, əgər məsləhət görməsə davam etməyəcəyəm".

## Başı kəsilən jurnalist yəhudi çıxdı

### İsrail XİN vətəndaşı haqda xüsusi məlumat yaydı; o, bir il əvvəl İsraildə toyda olub

**Xəbər verdiyimiz kimi, "İraq və Şam İslam Dövləti" terror təşkilatı Amerikanın "Time" və "Foreign Policy" jurnallarının müxbiri, 31 yaşlı Stiven Sotloffun başının kəsildiyinin əks olunduğu videogörüntüləri yayıb.**

Məlum olub ki, amerikalı jurnalist eyni zamanda İsrail dövlətinin vətəndaşı olub. İsrail Xarici İşlər Nazirliyi bu informasiyanın yayılmasına rəsmən icazə verib. Bildirilir ki, Mayamidə yaşayan Stiven Sotloff 2008-ci ildə İsrailə gəlib və burada təhsil alıb. Bu barədə İsrail mənbələri xəbər yayıb.

Stiven Sotloff axırıncı dəfə ötən il İsraildə olub. O, bir yerdə təhsil aldığı xanımın toy məclisində iştirak edib.

Amerikalı jurnalist İsraildə təhsilini başa vurduqdan sonra bir müddət ingilisdilli "Jerusalem Post" və "Jerusalem Report" qəzetlərində çalışıb.

Daha sonra ABŞ mətbuatında özünü sınayan jurnalist Yəmən, Livan və Misirdən çoxsaylı reportajlar hazırlayıb. 2013-cü ilin 4 avqustunda isə o, Suriyada yoxa çıxıb. Ehtimal edilir ki, Aleppo rayonunda İŞİD döyüşçüləri tərəfindən oğurlanıb. Onun girov qismində 1 il Raqqada saxlanıldığı güman edilir.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41



## Mirqədirova qoyulan yasaqdan Avropa Məhkəməsinə şikayət olunur

**MTN-in istintaq təcridxanasında saxlanan jurnalist Rauf Mirqədirova hələ də ailə üzvləri ilə görüş, telefonla danışmaq icazəsi verilmir. Bunu "Turan"a Mirqədirovun vəkili Elmar Süleymanov deyib. O, sentyabrın 2-də jurnalistə baş çəkdiyini, Mirqədirovun səhhətinin normal olduğunu qeyd edib.**

Vəkil bildirib ki, Mirqədirova doğmaları ilə görüşmək və telefonla danışmaq yasağından Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət hazırlayır.

Mirqədirov bu il aprelin 19-da Türkiyədən deportasiya edildikdən dərhal sonra Bakı aeroportunda həbs edilib. Ona qarşı dövlətə xəyanət ittihamı irəli sürülüb. Jurnalist ittihamı rədd edir, motivli sayır.

## Kərimli qardaşları narkoloji müayinədən keçir

**Müsavatçı Raqif Kərimlinin oğlu Sirac Kərimli ötən həftə narkoloji müayinəyə göndərilib. Dustağın atası "Media forum"a deyib ki, oğlundan bu məqsədlə qan analizi götürülüb.**

Raqif Kərimli həbsdə olan digər oğlu Fərəc Kərimovun da eyni formada müayinə ediləcəyini deyib: "Ötən həftə telefonla danışanda qan analizi vermək üçün aparılacağını demişdi. Sonra gedib-getməmeyindən xəbərim olmadı. Dünən Siracla telefonla danışa bilmişəm. Bir-birilərindən xəbərsizdirlər, əlaqə saxlaya bilmirlər. Sentyabrın 1-də görüş verilməli idi. Bakı İstintaq Təcridxanasının görüş zalı təmirə dayandığı üçün mümkün olmadı".

Sirac Kərimli 1984-cü il aprel ayının 30-da anadan olub. 2013-cü ildən Səbayel Rayon Su-Kanalizasiya İdarəsində nəzarətçi işləyir.

Fərəc Kərimov 1985-ci ilin oktyabr ayının 12-də anadan olub. Müsavat Gənclər Təşkilatının Nəzarət-Təftiş Komissiyasının sədri, partiyanın rəsmi internet səhifəsinin idarəçisidir. Bloqçu fəaliyyəti göstərir.

Fərəc Kərimov 2014-cü il iyulun 23-də həbs edilib. Bundan bir neçə gün qabaq - iyulun 17-də isə Sirac Kərimli tutulub. Hər iki qardaş Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, gəzdirmə) maddəsinə əsasən ittiham edilir. Fərəc və Sirac qardaşlarının müdafiəçiləri həbsləri siyasi motivlərlə bağlayır və Siracın əslində Fərəcə görə tutulduğunu bildirirlər. Daxili İşlər Nazirliyi bu iddiaları rədd edib.

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014

# Ərdoğanın Bakı səfərində mühüm mesajlar verildi

## "Heydər Əliyev" ordeni ilə təltif olunan Türkiyə prezidenti Dağlıq Qarabağ münaqişəsinin həllini tələb etdi: "Əgər Azərbaycanla Ermənistan arasında problem həll olunsa, Türkiyə və Ermənistan arasındakı problem də həllini tapacaq. Əks halda, Türkiyə və Ermənistan arasındakı durum indiki kimi davam edəcək"

**Sentyabrın 3-də Bakıda Türkiyənin yeni prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub. Azərbaycan prezidentinin iqamətgahında keçirilən mərasimdə hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.**



Qarşılanma mərasimindən sonra prezidentlər arasında təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli görüş keçirilib. Görüşdə Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Bu səfərin ölkələr arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyi bildirilib və münasibətlərin bundan sonra da daim yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olunub. Görüşdən sonra birgə bəyannamə qəbul olunub.

Daha sonra prezident İlham Əliyev tərəfindən Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilib. Azərbaycan prezidenti Rəcəb Tayyib Ərdoğana "Heydər Əliyev" ordeni təqdim edib.

**"Çox şadıq ki, andiçmə mərasimindən bir həftə keçməmiş doğma Azərbaycana - vətənə səfər edirsiniz". APA-nın məlumatına görə, bunu Ərdoğanla görüşdən sonra mətbuat üçün verilən birgə bəyanatda İlham Əliyev deyib. O bildirib ki, bu gün (dünən - red.) keçirilən təkbətək və geniş tərkibli görüşlərdə ikitərəfli əlaqələr müzakirə olunub:** "Bir daha əmin olduq ki, əlaqələr yüksək səviyyədədir. Əlaqələrimiz dostluq və qardaşlıq təməlləri üzərində qurulub".

**İlham Əliyev iki ölkənin beynəlxalq səviyyədə daim bir-birinə dəstək verdiyini, ikitərəfli məsləhətləşmələr apardığını söyləyib:** "Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi üçün Türkiyəyə minnətdarlığımı bildirmək istəyirəm. Türkiyə bütün dövrlərdə bu istiqamətdə mövqeyini açıq ortaya qoyub, haqqı-ədaləti müdafiə edib. Görüşümüzdə bu məsələ də müzakirə olundu. Azərbaycan torpaqları işğal altındadır, 1 milyon qaçqın var, etnik təmizləmə siyasəti aparılıb. BMT bu münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Lakin Ermənistan bu qətnamələrə məhəl qoymur. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır və əminəm ki, belə olacaq".

**Dövlət başçısı qeyd edib ki, "erməni soyqırımı" yalanına qarşı Türkiyə və Azərbaycan birgə fəaliyyət göstərəcək:** "Biz qondarma "erməni soyqırımı"nın ifşası ilə bağlı fəaliyyətimizi koordinasiya şəklində aparacağıq. İctimai, diaspor təşkilatlarımız birgə fəaliyyət göstərəcək. Yalanı birgə ifşa edəcəyik".

**Prezident İlham Əliyev görüşdə müdafiə sənayesi və energetika sahəsində əməkdaşlıq barədə də müzakirə aparıldığını nəzərə çatdırıb:** "Bu gün birgə əsərimiz olan TANAP layihəsi dünyanın diqqətini cəlb edib. Əminəm ki, tarixi layihə vaxtında icra olunacaq. Bu, daha geniş beynəlxalq əməkdaşlıq tələb edən layihədir".

**Görüşdə qarşılıqlı sərmayələr də diqqət mərkəzində olub. Azərbaycan prezidenti bildirib ki, yaxın 5 ildə Türkiyəyə daha çox sərmaya qoyulacaq:** "Bu, təxminən 17-20 milyard həcmində olacaq. "Şahdəniz" layihəsində Türkiyə də iştirak edir. Azərbaycana da verilən sözlərin yerinə yetirilməsini istəyəcəyik. Əminəm ki, bundan sonra qardaşlıq əlaqələrimiz daha da inkişaf edəcək".

### İsa Qəmbər: "Bir sıra məsələlər Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını, bu prosesin sıfır nöqtəsindən çıxmasını şərtləndirir"

**R.T.Ərdoğan isə bəyan edib ki, Türkiyə və Azərbaycan rəhbərləri arasında qarşılıqlı ilk rəsmi səfərlər artıq ənənəyə çevrilib və bu da münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Onun sözlərinə görə, görüşdə bir çox məsələlər müzakirə olunub:** "Türkiyə-Azərbaycan münasibətləri bundan sonra çox fərqli formada inkişaf edəcək. Hazırda bölgədəki problemlər iki ölkənin müştərək çözəcəyi problemlərdir. Əgər Azərbaycanla Ermənistan arasında problem həll olunsa, Türkiyə və Ermənistan arasındakı problem də həllini tapacaq. Əks halda, Türkiyə və Ermənistan arasındakı durum indiki kimi davam edəcək. Münasibətlərimizin inkişafı yönündə səylər eyni qətiyyətlə davam etdiriləcək".



**Ərdoğan bir çox sahələrdə əməkdaşlığa dair müzakirə apardıqlarını, lakin Dağlıq Qarabağ məsələsinin gündəmdəki əsas məsələ olduğunu vurğulayıb:** "Bu istiqamətdə bundan sonra atacağımız addımları müzakirə etdik".

**R. T. Ərdoğan deyib ki, enerji məsələsi də geniş müzakirə olunub:** "TANAP böyük əhəmiyyət daşıyır. Bu, Azərbaycanın enerji sahəsində gücünü ortaya qoyması, barış xətti olması baxımından çox mühüm layihədir. İnşallah, bu ayın 20-də təməlqoyma mərasimi keçiriləcək və işlər başlayacaq. Artıq proses sürətlənəcək".

**Türkiyə prezidentinin sözlərinə görə, Azərbaycandakı inkişafı dünya heyrətlə izləyir:** "Bunda prezident İlham Əliyev və komandasının böyük rolu var. Ötən dövr ərzində Azərbaycanın inkişafından məmnunam. Qardaşlarımızın güclənməsi gələcəyə ümidlərimizi də artırmaqdadır".

**Ərdoğan Azərbaycanla ticarət dövriyyəsinin həcminin ildə 15 milyard dollara çatdırılmasının qarşıya məqsəd qoyulduğunu açıqlayıb:** "İnanıram ki, qardaşlığımız daha da güclənəcək. İki ayrı dövlət, bir millətik, bu, Heydər Əliyevin mirasıdır".

**Türkiyə prezidenti çıxışı zamanı qeyd edib ki, NATO sammitində bəzi ölkələrə verilən vədlərin yerinə yetirildiyi kimi, Azərbaycana da verilən vədlərin yerinə yetirilməsinin vacibliyi vurğulanacaq. Sitat:** "NATO konfransı və buna oxşar görüşlərdə Azərbaycana verilən sözlər var. Bu sözləri orada da gündəmə gətirməklə, tezliklə digər ölkələrə verilən sözlər necə yerinə yetirilirsə, Azərbaycana da verilən sözlərin yerinə yetirilməsini istəyəcəyik. Bu artıq bir ianə deyil, lüft deyil, bir haqdır".



### İlham Əliyev: "Azərbaycana da verilən sözlərin yerinə yetirilməsini istəyəcəyik"

Ermənistan-Türkiyə münasibətlərinin düzəlməsinə toxunan prezident Ərdoğan bunun Ermənistanın Azərbaycanla bağlı davranışından asılı olduğunu deyib.

Türkiyə prezidenti detallara varmasa da, söhbətin Dağlıq Qarabağ nizamlanması ilə bağlı prosesdən getdiyi bəlli olur. Məsələ burasındadır ki, bir qədər əvvəl diplomatik mənbələrdən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə yeni plan ortaya qoyulduğu və bu plana əsasən Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılması prosesinin başladılması, eyni zamanda Türkiyə-Ermənistan arasında diplomatik münasibətlərinin qurulmasının nəzərdə tutulması ilə bağlı məlumatlar ötürülmüşdü. Türkiyə prezidentinin məhz həmin nöqtəyə diqqət çəkməyə çalışdığı aydın hiss olunur.

**Müsavat Partiyasının başqanı İsa Qəmbər Türkiyə prezidentinin ilk səfərini Bakıya etməsini və burada nikbin mesajlar verməsini müsbət qiymətləndirir:** "Türkiyənin xalq tərəfindən seçilən prezidentinin ilk rəsmi səfərini Azərbaycana etməsinin məntiqini və önəmini mən artıq vurğulamışam. Səfərlə bağlı alınan ilkin məlumatlar və ilkin təəssüratlar bunu bir daha təsdiq edir ki, Azərbaycanla Türkiyə arasındakı əlaqələrin bütün istiqamətləri üzrə müzakirələr aparılıb. Bütün bu istiqamətlər üzrə müsbət fikirlər, nikbin proqnozlar səsləndirilib dövlət başçıları tərəfindən. Təbii ki, bunu müsbət dəyərləndirmək lazımdır. Eyni zamanda yəqin ki, deyilməyən müəyyən məsələlərlə bağlı informasiyalar aydınlaşdıqca bu səfər haqqında fikirlərimizi daha detallı bildirmək imkanı olacaq".

**Ərdoğanın NATO sammitində Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi ilə bağlı fikirlərinin bu prosesə hansı təsiri ola biləcəyi ilə bağlı suala cavab olaraq Müsavat başqanı bildirdi ki, hazırda şərtlər münaqişənin həllini tələb edir:** "Bir sıra məsələlər Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını, bu prosesin sıfır nöqtəsindən çıxmasını şərtləndirir. Bir tərəfdən, Rusiya-Ukrayna münaqişəsi, orda baş verən faciəvi hadisələr beynəlxalq birliyi bu məsələlərə daha diqqətli və daha ciddi yanaşmağa sövq edir. Digər tərəfdən, Türkiyə-Ermənistan sərhədlərinin açılması mövzusu, Ermənistanın bölgə izolyasiyasından və Rusiyanın nəzarətindən çıxarılması istiqamətində beynəlxalq birliyin səyləri davam edir. Buna görə Türkiyə tərəfinə də təklif edilir ki, müəyyən qərarlar qəbul eləsin. Xüsusən də 2015-ci ildə qondarma "erməni soyqırımı"nın 100-cü ildönümü ilə bağlı ola bilər ki, Türkiyə tərəfinə təzyiqlər artsın, müəyyən addımlar atmaq barədə düşünülsün. Türkiyənin dövlət başçısı R.T.Ərdoğan və digər vəzifəli şəxsləri, o cümlədən indiki baş nazir, keçmiş xarici işlər naziri Əhməd Davudoğlu dəfələrlə bildiriblər ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində irəliləyiş olmadan Türkiyə-Ermənistan münasibətlərinin normallaşması mümkün olmayacaq. Bu və digər məsələlər işğal olunmuş torpaqların azad edilməsi prosesinin sürətləndirilməsini və reallaşdırılmasını diqtə edir. Bu baxımdan bu fürsətlər düzgün dəyərləndirilməlidir və mən inanıram ki, Türkiyənin dövlət başçısı və hakimiyyəti təmsil olunduğu beynəlxalq tədbirlərdə, o cümlədən yaxın günlərdə keçiriləcək NATO sammitində bölgədə sülh və sabitlik naminə Azərbaycanın haqlı mövqeyinin təmin olunması naminə öz tərəfindən mümkün addımları atacaq".

### Viza təxribatının səbəbkarı kimdir?

**Qeyd edək ki, Ərdoğanın səfəri ərəfəsində Azərbaycanla Türkiyə arasında viza qalmaqalı baş verib. Türkiyə Nəqliyyatçılar Dərnəyi Azərbaycanın Türkiyədəki səfirliyinin ölkə vətəndaşlarına çoxgirişli viza verilməsi qaydasını ləğv etdiyini bəyan edib. Ancaq bu xəbərin yayılmasından sonra səfirlik məlumatı təkzib edib. Azərbaycanın Türkiyədəki səfiri, eləcə də İstanbul konsulu xəbərin əsassız olduğunu bildirib. İstanbul konsulu Həsən Zeynalov isə "Yeni Müsavat"a açıqlamasında bu hadisənin təxribat olduğunu bildirib. Ötən gün təkrar Həsən Zeynalovla əlaqə saxladıq. Konsul bildirdi ki, bu xəbərin yayıldığı mənbəni araşdırmağa çalışıblar:** "Bu məsələ ilə bağlı mən dünən *(sırağagün - red.)* sizin qəzetdə adı gedən Türkiyə Beynəlxalq Nəqliyyat Birliyinin nümayəndəsi Fatih Şenerlə danışdım. Ona iradımı bildirdim. Onlar məsələni düzgün qoymayıblar və mən ona bunu bildirdim. Doğrudur, o bunu nə məqsədlə etdikləri ilə bağlı mənə konkret cavab verə bilmədi.

Onlar deyir ki, bizə bir sürücü bu barədə məlumat verib. Mən də onlara bildirdim ki, əgər bunu bir sürücü deyirsə, siz bunu bizim konsulluqla dəqiqləşdirə bilərdiniz. Sizin bu şəkildə hərəkət etməkdə, çətinlik yaratmaqda məqsədiniz nədir? Ancaq Fatih Şener bu barədə mənə doğru-düzgün izah verə bilmədi".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014


alanba English | الاخيرة | تقارير خاصة | كتاب وآراء | حول العالم | منوعات | فنون | المجتمع | رياضة | اقتصاد وأعمال | عربية وعالمية | أدب وثقافة | اخبار الكويت

مؤشر البورصة
المؤشر السعري 7,444.94
قدره 22.55
تاريخ الاقفال 03 /09 /2014

هل تريد زيادة دخلك الشهري؟ تفاصيل إضافية

كاريكاتير

اقتصاد وأعمال

...بيجاني يروّج لإنشاء أعلى برج في العالم

أضف تعليقك

ابراهيم ابراهيموف


لطرح مشروع إنشاء أعلى برج بالعالم

...ني يزور الكويت لبحث سبل تطوير العلاقات الاقتصادية

...العامة للصناعة

إعلان

صندوق الرائد للاستثمار

| التاريخ | المكان | التكلفة |
|---|---|---|
| 2014/9/18-7 | هيلتون المنقف | 8000 ريال سعودي |

www.gso.org.sa




## "Khazar Islands" Küveyt mətbuatında...

**Avesta Konserninin meqa layihəsi "Khazar Islands"a maraq son günlər xüsusilə diqqəti cəlb edir. Beynəlxalq mətbuat nümayəndələri Azərbaycana gələrək, həm layihə ilə yaxından tanış olur, həm də şirkətin prezidenti Hacı İbrahim Nehrəmlidən geniş reportajlar hazırlayırlar.**

Yola saldığımız ay Yaponiya və Türkiyə KİV-lərindən əlavə Küveytin tanınmış mətbu orqanları da bu analoqu olmayan layihədən yazılar dərc ediblər. Məqalələrdə Avesta Konserninin prezidenti Hacı İbrahim Nehrəmlidən bəhs edən KİV nümayəndələri bu layihənin dünya miqyasında tanınmasından, layihənin dəyərindən və perspektivlərindən bəhs ediblər.

Həmçinin gələcəkdə Küveyt və Azərbaycan arasında investisiya əlaqələrinin genişləndirilməsinin hər iki ölkə üçün çox mühüm əhəmiyyət kəsb etdiyini də vurğulayıblar.

Qeyd edək ki, bu yazılar Küveytin "Alwatan" və "Alanba" nəşrləri tərəfindən dərc olunub.

**Sentyabrın 2-də Bakının məşhur restoranlarından birində-"Oazis"də dava düşüb. Restoranda olan hadisə şahidlərindən "Qafqazinfo"ya verilən məlumata görə, dava ad günü qeyd edən bir ailənin yaxınları arasında başlayıb. Mühafizəçilər yaranan insidenti sakitləşdirsələr də, 20 dəqiqədən sonra ara yenidən qarışıb.**




# Paytaxtın məşhur restoranında davanın təfərrüatları

## "Mühafizəçilərdən biri dedi ki, "get yoldaşına de, yaxasını bağlasın"

Bu dəfə həmin şəxslər restoranda qarşılarına çıxan bütün stolları çeviriblər. Bundan sonra "qəhrəmanlar" restoran xidmətçilərini və mühafizəçiləri də döyməyə başlayıblar.

Restorandakı vəziyyət o həddə çatıb ki, insanlar qorxaraq mətbəxə qaçıblar.

**Hazırda xəstəxanada müalicə olunan Zaur Əsgərov bildirib ki, hadisədə onu və qonaqlarını döyüblər:** "Uşağımın 3 yaşını qeyd etmək üçün "Oazis"də 15 nəfərlik yer götürmüşdüm. Qonaqların 8-i kişi, 7-si isə qadın idi. Mən xanımımla rəqs edərkən mühafizəçilərdən biri məni çölə çağırdı. Mənə dedi ki, "get yoldaşına de, yaxasını bağlasın".

Bu söz mənə pis təsir etdi və cavabını verdim. Bu vaxt mühafizəçilər töküldü üstümə. Təsəvvür edin, aşpazlar, ofisiantlar, hətta restoranın "hacı" ləqəbli sahibi də bizi döyməyə başladı. Şəxsən "hacı" başıma boşqab vurdu. İndi mən xəstəxanadayam, ayaqlarımı sındırıblar. Qonaqlarımdan Emil Tumasovun təkcə üzünə 50 tikiş vurulub. Məndən başqa ağır yaralanan dostlarım və bütün qohumlarımız hazırda Binəqədi Rayon Polis Şöbəsindədir. Biz 7 kişi 50-60 nəfəri necə döyə bilərik?"

**Zaur Əsgərov həmçinin bildirdi ki, restoran rəhbərliyi insidentdə onları günahlandırır:** "Bu davada bizim günahımız yoxdur. Mühafizəçilər özləri başladı, biz zərərçəkən tərəfik. Amma polis bölməsində restoranın sahibləri deyil, bizim qohumlar saxlanılır".

**DİN mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov "Qafqazinfo"ya açıqlamasında bildirib ki, hadisə 23 radələrində baş verib:** "Hələlik şəxsiyyətləri müəyyənləşməyən iki nəfər xuliqanlıq zəminində 3 nəfəri bıçaqlayıb. Yaralılara ilkin müdaxilə edildikdən sonra xəstəxanadan buraxılıblar, vəziyyətləri yaxşıdır. Hazırda həmin şəxslərin axtarış tədbirləri davam etdirilir".

## Tofiq Yaqublunun apelyasiya məhkəməsi olub

**Sentyabrın 3-də Şəki Apelyasiya Məhkəməsində İsmayıllı hadisələrinə görə təqsirləndirilən şəxslərin, o cümlədən Müsavat başqanının müavini Tofiq Yaqublunun işi davam etdirilib. Vəkili Nemət Kərimlinin "Yeni Müsavat"a verdiyi məlumata görə, prosesdə T.Yaqublu müdafiə və ittiham tərəfinin suallarını cavablandırıb: "Ötən prosesdə Tofiq Yaqublu ifadə vermişdi. Bu prosesdə isə müdafiə və ittiham tərəfinin suallarına cavab verdi. Yeni bir söz olmadı. Tofiq bəy bu hadisədə özünü günahkar bilmədiyini, ittihamın qondarma və sifarişli olduğunu çıxışında qeyd etdi. Onun İsmayıllıya nə vaxt gəlməsi, necə saxlanmasını təkrar olaraq danışdı".**

N.Kərimli T.Yaqublunun vəziyyətinin yaxşı, əhval-ruhiyyəsinin yüksək olduğunu bildirdi. Vəkil Yaqublu ilə Müsavatın qurultayı, namizədlərdən kimə dəstək verəcəyi barədə müzakirə apardıqlarını söylədi. Vəkil əlavə etdi ki, İsmayıllı məhbuslarından olan Səttar Ağamalıyevin vəkili vəsatət qaldırıb. Vəsatətdə Mingəçevirin indiki polis rəisi Ələsgər Bədəlovun məhkəmədə iştirakı istənilib. Məhbusun vəkili deyib ki, daha 4 şahid ifadə verməlidir və onlara çağırış vərəqəsi göndərilməyib.

Dövlət ittihamçısı isə bundan qabaq belə bir vəsatət verilmədiyini söyləyib. Bu zaman tərəflər arasında mübahisə yaranıb.

Məhkəmə prosesində hakim vəkillərin qaldırdığı vəsatətləri təmin etməyib. Məhkəmə iclasının ikinci hissəsində ələvə sahidlər dindirilib.

Hakim Mingəçevir Polis İdarəsinin rəisinin şahid qismində məhkəməyə çağırılmasına qarşı çıxıb. Bu barədə vəkilin vəsatətini təmin etməməsinin səbəbini hakim "O, polis rəisidir" deməklə əsaslandırmağa çalışıb.

Müsavat başqanının müavini Tofiq Yaqublu isə hakimin arqumentinə replika atmaqla reaksiya verib: "Axır ki, rütbənin boyuk rol oynadığını qəbul etdiniz".

Hakim vəsatətlərdən üçünün təmin olunduğunu qeyd edib. Apelyasiya məhkəməsinin növbəti prosesi sentyabrın 4-də davam etdiriləcək.

T.Yaqublu Şəki Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 5 il azadlıqdan məhrum edilib. O, İsmayıllı hadisələrində əhalini iğtişaşlara təhrik etməkdə ittiham olunub. Yerli və beynəlxalq təşkilatlar müsavatçını vicdan məhbusu elan edib.

❑ **EMİL**

# Türkiyə-Azərbaycan münasibətlərində gizli minalar - İŞİD və İran

## Bakı Ankaranın enerji siyasəti və eləcə də İŞİD təhlükəsindən narahatdır

**Türkiyə prezidentinin Azərbaycana səfəri öncəsi qeydə alınan bir sıra hadisələrdən sonra iki ölkə münasibətləri ilə bağlı bəzi nüanslar ortaya çıxıb. İki ölkə arasında münasibətlər yüksək səviyyədə olsa da bir sıra məqamlar var ki, Ankara və Bakı arasında həllini tapmamış məsələlərin olduğunu göstərir.**

Bir sıra müşahidəçilərə görə, Azərbaycanın Türkiyədəki səfirliyinin viza qaydalarının dəyişməsi ilə bağlı xəbəri təkzib olunsa da, rəsmi Bakının Türkiyədən radikal dini fikirlərin təbliğ edən və Suriyada davam edən savaşa döyüşçü



cəlb olunması prosesinin qarşısını almaq məqsədilə bir sıra addımlar atmaq planları var. İddialara görə, viza qaydalarının dəyişdirilməsi təşəbbüsü, yəni bir viza-bir giriş sisteminin tətbiq olunması Türkiyədən Azərbaycana qeyri-qanuni dini təbliğatlar, eləcə də xaricə döyüşçü göndərilməsi fəaliyyətinin qarşısını almağa xidmət edir. Məlum olduğu kimi, Türkiyədə radikal dini qrupların, o cümlədən İŞİD yaraqlılarının Türkiyə ərazisində yerləşməsi və təlim düşərgələri qurması haqda çoxsaylı iddialar var. Eyni zamanda bir neçə ay əvvəl Azərbaycan ərazisindən radikal dini qruplara qoşulmuş gənclərin məhz Türkiyə üzərindən Suriya və İraqa göndərildiyi və bu prosesdən Türkiyə xüsusi xidmətlərinin "xəbəri olduğu" haqda məlumatlar yayılmışdı. Hətta İstanbuldakı konsulluğumuz da azərbaycanlı gənclərin məhz Türkiyə üzərindən Suriyaya aparılması ilə bağlı narahatlığını bildirmişdi. Belə görünür ki, Bakının planlarında Türkiyədən viza verilməsi qaydalarında bir sıra "texniki dəyişikliklər" etmək olsa da, uyğunsuz dövrə təsadüf etdiyi üçün bu qərar təxirə salınıb.

**Eyni zamanda ekspertlərə görə, Türkiyə hökuməti Ermənistanla münasibətlərdə yeni strategiya qurmağa çalışır. Ankara Universitetinin doktorantı, politoloq Orxan Qafarlı deyir ki, Ankaranın 2015-ci ilə qədər Ermənistanla diplomatik münasibətləri bərpa etmək istəməsi ilə bağlı iddialar var. Ancaq bu dəfə Ankara Azərbaycanın maraqlarını nəzərə alacaq:** "Burda diqqətə almaq lazımdır ki, Ankara bu dəfə Azərbaycanın rahatsız olduğu sərhəd məsələsinə toxunmayacaq. Daha aydın şəkildə ifadə etsək, ermənilərlə diplomatik münasibətlərin bərpa olunma prosesində sərhədlər açılmayacaq. İlk olaraq diplomatik münasibətlər bərpa olunacaq, bundan sonra Ankara birbaşa Qarabağ və sərhəd məsələsində diplomatik bağlantılarla problemlərə müdaxilə etməyi planlaşdırır. Ankara fikirləşir ki, diplomatik münasibətləri olmadığı bir ölkə ilə hər hansı münaqişəni müzakirə etmək mümkünsüzdür. Belə hallarda üçüncü tərəflərə ehtiyac yaranır və tərəflərin öz maraqları ortaya girir".

**Eyni zamanda ekspertə görə, Azərbaycanla Türkiyə arasında təkcə erməni məsələsi deyil, eyni zamanda enerji məsələsində də ciddi fikir ayrılığı var:** "Bakı Ankaranı iranyanlı bir enerji siyasətində ittiham edir. Ankarada isə Bakının İsraillə enerji məsələlərində lobbiçilik etdiyini deyirlər. İki tərəf arasında enerji məsələsində erməni məsələsi qədər ciddi fikir ayrılıqları var. Düşünürəm ki, Ərdoğanın səfərindən sonra Əhməd Davudoğlunun Bakıya səfəri reallaşacaq. İki ölkə arasında enerji və erməni məsələsi müzakirəyə çıxarılıb ortaq yol tapılmağa çalışılacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Sumqayıtda oğurlanan uşaq tapıldı

## Onu oğurlamaqda şübhəli bilinən Xırda Babayeva saxlanılıb

**Sumqayıtda oğurlanan körpə Bakıda tapılıb. Sumqayıt Şəhər Polis İdarəsindən APA-ya verilən məlumata görə, avqustun 13-də oğurlanan 2 aylıq körpə ötən gün tapılıb. Sumqayıt Şəhər Polis İdarəsi və Binəqədi Rayon Polis İdarəsinin birgə apardığı əməliyyat-axtarış tədbirləri nəticəsində oğurlanan körpə, 2014-cü il iyunun 6-da anadan olan Aylin Rasim qızı Əhmədli Binəqədi rayonu, 6-cı mikrorayon, ev 4a, mənzil 120-də tapılıb. Uşağı oğurlamaqda şübhəli bilinən 1968-ci il təvəllüdlü Xırda Əli qızı Babayeva saxlanılıb.**

Daxili İşlər Nazirliyi (DİN) və Respublika Baş Prokurorluğu bir müddət əvvəl Sumqayıt şəhərində 2 aylıq körpənin oğurlanması faktı ilə bağlı birgə məlumat yayıblar.

APA-nın xəbərinə görə, yayılan məlumatda avqustun 13-də Sumqayıt şəhər sakini Aysel Əhmədovanın DİN-in "102" xidmətinə və Sumqayıt Şəhər Polis İdarəsinə müraciət edərək həmin gün azyaşlı uşaqları ilə birlikdə şəhərdəki "Nəsimi" adına parkda olarkən 2 aylıq qızı Aylinin tanımadığı qadın tərəfindən oğurlandığını bildirdiyi qeyd olunub.

Həmin faktla bağlı Cinayət Məcəlləsinin 144.1-ci (adam oğurluğu) maddəsi ilə cinayət işi başlanıb. Həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Xırda Babayeva sentyabrın 3-də tutulub.

Müəyyən edilib ki, 2004-cü ildən Türkiyə Respublikasının vətəndaşı ilə ailə qurmuş Xırda Babayeva övladları olmadığına görə yeni doğulmuş uşaq oğurlamaq niyyətinə düşüb. Bu məqsədlə Sumqayıt şəhərində qaçqın ailələrinin kompakt yaşadıqları yerə gəlib, sakinlərə özünü "İmkansız ailələrə yardım fondu"nun nümayəndəsi kimi təqdim edərək yeni doğulmuş və köməyə ehtiyacı olan ailələrlə maraqlanıb. Orada vətəndaş Aysel Əhmədova ilə tanış olub, körpəsini gördükdə onu oğurlamaq qərarına gəlib. Gənc ananın inam və etibarını qazanmaq üçün özü ilə gətirdiyi ərzaq məhsullarını da həmin ailəyə verib, onlarla birlikdə parkda gəzintiyə çıxıb. Yaranmış fürsətdən istifadə edən X. Babayeva körpəni oğurlayaraq hadisə yerindən uzaqlaşıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014

# Yuxarıdan modernizasiya- vintlər bərkidilir, yol "təmizlənir"

**Ölkəmizdə nə baş verir? Gözümüzlə gördüklərimizdən başqa, bu cür mürəkkəb siyasi proseslərin arxasında dayanan gizli, məhdud bir dairəyə məlum olan məqamlar varmı? Varsa, hansılardır? Çoxsaylı suallar həm də ona görə doğur ki, dünyanı idarə edən demokratiya paytaxtları Azərbaycandakı proseslərə olduqca səbrlə yanaşırlar. Şərti olaraq, "demokratik düşərgə" adlandırılan müxaliflər bağırırlar ki, ölkədə vəziyyət dözülməz həddə qədər pisləşib; azadlıqlar daha da məhdudlaşdırılıb, həbslər intensivləşib, Qərbdən gələn mərkəzləşdirmə ideologiyasına - demokratiyaya bağlı fərdlər və təşkilatlar darmadağın edilib, maliyyə axınları qapadılıb...**



# İqtidar Azərbaycanı yeni mərhələyə daşıyır...

## Müxalifət və iqtidarın bildiyi mübhəm bir süreci yaşayırıq; "Azərbaycan fərqli bir mərhələyə - "idarə olunan demokratiyaya" qədəm qoymaqdadır"; "Dövlət başçısı İlham Əliyev buna artıq imza atıb..."; niyə heç kim "demokratiya şəhidi" olmaq istəmir...

Və bütün bunların fonunda iqtidar komandasının soyuqqanlı, lakin kəskin gedişləri hətta ciddi analitiklər tərəfindən çaşqınlıqla izlənir. Demokratik açılım, yumşalma, gərilmiş iplərin boşalması gözlənildiyi halda, tam tərsi sayıla biləcək süreci müşahidə etməkdəyik. Görünən budur ki, hakimiyyət, başda prezident olmaqla, israrla ölkəni yeni mərhələyə keçirir. Cəmiyyətə yenidən dizayn vermək üçün bütün resurslar işə salınıb. Bəs, elə isə, biz hara gedirik?

Məsələnin maraqlı tərəfi budur ki, hazırda Qərb paytaxtlarındakı donor təşkilatlarla daha yaxından işləməyə başlayan, onlardan birbaşa maliyyə dəstəyi alaraq, müəyyən işlər görən müstəqil QHT-lərin sıradan çıxarılmasına siyasi partiyaların funksioner elitası da soyuqqanlı yanaşır. Sanki rəqiblərin sıradan çıxarılmasından yaranan məmnun təbəssüm bir tablo kimi müxalif lider obrazında cəmiyyətə əl edir...

**"Barrozo Bakıda olanda bildirmişdi ki, saziş artıq hazırdır və yaxın zamanlarda imzalanacaq. Məncə, Azərbaycan hakimiyyəti demokratik açılımla bağlı sazişi imzalamaq ərəfəsində özünə mane olan və ola biləcək bütün qurumları və şəxsləri təsirsiz hala gətirmək, sıradan çıxarmaq istəyir"**

Onlar niyə belə rahatdırlar? Sadə müxalifətçilərdə, lap elə müstəqil qəzetçilərdə və hesabları bağlanan, təzyiqlərə məruz qalan QHT sektorunda olan panikadan müxalifət funksionerlərində niyə yoxdur. Heç bir etiraz tədbirinə, aksiyalara, fləş-moblara istinad etmədən, gözləyirlər... Deməli, sadə protestçinin bilmədiyi məlumata malikdirlər. Onlar bilirlər ki, Azərbaycan iqtidarı əslində nə edir; bu prosesə Qərb paytaxtları niyə səbrli yanaşır və iqtidara istədiyini etmək üçün kart-blanş verir...

**Bu məqamda mövzunu açmaq üçün ölkənin ən məlumatlı ekspertlərindən olan "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevi dinləyək. O düşünür ki, hakimiyyət təmsilçilərinin son mesajları ilə onlardan gözlənilən demokratik açılım süreci arasındakı ziddiyyətlərin əsas səbəbi Azərbaycanın beynəlxalq öhdəlikləri ilə bağlıdır:** "Söhbət Avropa Birliyi ilə strateji modernləşmə sazişindən gedir. Avropa Birliyinin prezidenti Barrozo Bakıda olanda bildirmişdi ki, saziş artıq hazırdır və yaxın zamanlarda imzalanacaq. Məncə, Azərbaycan hakimiyyəti demokratik açılımla bağlı sazişi imzalamaq ərəfəsində özünə mane olan və ola biləcək bütün qurumları və şəxsləri təsirsiz hala gətirmək, sıradan çıxarmaq istəyir. Çünki zaman azdır. Avropa Birliyi ilə həmin saziş imzalanandan sonra analoji addımların atılması hakimiyyət üçün ciddi probleme, böyük başağrısına çevrilə bilər. İlham Əliyev basqı ilə hansısa addımlar atmaq istəmir. Prezident hesab edir ki, ona heç kəs basqı göstərməməlidir. O, nümayiş etdirir ki, Avropa Birliyi ilə bağlanacaq saziş üzrə öhdəliklər iqtidarın öz təşəbbüsüdür". Mehman Əliyev deyir ki, Avropa Birliyi iqtidarın əksər şərtlərini qəbul edib və bu saziş olacaq.



**"Bizdəki məlumata görə, bu prosesdə ən önəmli rol gələcək "xüsusi seçilmiş parlament"ə veriləcək. Yəni 2015-ci ildə seçiləcək parlament ölkənin taleyində "ASAN xidmət" qədər önəm daşıyacaq"**

Yəni məsələ də budur ki, bütün məlumatlı obyektlər- o cümlədən də siyasətlə peşəkarcasına məşğul olan müxalifət liderləri bilir ki, AB ilə modernləşmə sazişi imzalanacaq və ölkə yeni mərhələyə daxil olacaq. İndi hər kəs çalışır ki, bu yolda verilən "demokratiya şəhidi" başqası olsun. Bu baxımdan, "qrantlardan milyonlar yeyib, müxalifətə heç nə verməyən" QHT rəhbərlərinə görə kimsə özünü yandırmaq istəmir...

**Mehman Əliyevin də söylədiklərindən belə nəticəyə gəlmək olur ki, Azərbaycanın demokratik düşərgəsinin böyük ümidlər bəslədiyi Qərb paytaxtları, rəsmi Bakının şərtlərini qəbul etdiyi üçün son 10, hətta 15 il əməkdaşlıq etdiyi şəxsləri, qurumları Azərbaycan hakimiyyətinə "güzəştə gedib". Ortada ciddi "itkilər" olsa belə Mehman Əliyev durumu gözlənilməz saymır:** "Baş verənləri bir savaş kimi təsəvvür etmək gərəkdir. Savaşda canlı itkilər mütləq olur. Təbii, heç bir tərəf əsgər, zabit itirmək istəmir. Ancaq müharibənin öz qanunları var. Qurban kimi gördüyümüz insanlar da getdikləri yolun fərqində idilər. Onların həbsdən sonrakı çıxışlarında da bu ritorika var - təxminən hamı həbs olunacağını bildiyini deyir. Bu gün Azərbaycanda ictimai fəaliyyətlə məşğul olan, xüsusən iqtidarda hər hansı qıcıq yaradan qüvvə bundan sığortalanmayıb".

**Mehman Əliyev deyir ki, bizim köklü dəyişiklik saydığımız məqamlar Qərb üçün sadəcə korrektədir:** "Azərbaycan fərqli bir mərhələyə qədəm qoymaqdadır. Bu mərhələnin adına "idarə olunan demokratiya" demək olar. Hakimiyyət ASAN xidmət kimi, daha bir neçə bu cür layihə tətbiq edə bilər... Məsələn, gələn ilə Elektron Məhkəmələr layihəsinin tətbiqinə başlanacaq. Azərbaycan məhkəmə sistemindəki durumu nəzərə alsaq, bu, inqilabi qərar olacaq. Bu gün Azərbaycan məhkəmələrində çəkiliş aparmaq mümkün deyil. Ancaq məhkəmə proseslərinin tam şəkildə lentə alınması, internetdə yayılması, məhkəmənin şəffaflığının bu şəkildə təmin olunması Elektron Məhkəmənin tələbidir. Dövlət başçısı İlham Əliyev buna artıq imza atıb, hökumətə layihənin icrası üçün gərəkli tədbirlərin görülməsi haqqında tapşırıq verib. Bir vaxtlar məhkəmələri onlarla QHT monitorinq eləyirdi, indi bu prosesi hakimiyyət özü həyata keçirəcək. Birdən-birə mənzərə tamamilə yeni xarakter alır. Bu cür layihələr Azərbaycanda gündəmi tamamilə dəyişə bilər. Hakimiyyət buna gedir və buna getməyə məcburdur. Hakimiyyət dərk edir ki, bu addımları atmağa məcburdur, bu proses qaçılmazdır. Ancaq istəmir ki, bu, basqı altında olsun. İlham Əliyev hakimiyyətdə və tarixdə böyük reformator kimi qalmaq istəyir. O, praqmatikdir və situasiya ilə hesablaşır".

Yekunda qeyd edək ki, oxucu və cəmiyyət üçün açmaq istədiyimiz mürəkkəb situasiyanı sadə cümlələrlə adi xəbər halına gətirməsi səbəbindən, biz mövzunun mahiyyətini Mehman Əliyevin dili ilə açmağa daha çox üstünlük verdik. Görünən budur ki, ölkəmizi "yuxarıdan döyə-döyə modernizasiya" prinsipi ilə yeni mərhələyə daşıyan Azərbaycan iqtidarı yaxın gələcəkdə açılımlara gedəcək; sistemdaxili idarə olunan demokratiya modelinə, daha sonra isə, bacarsa, daha irəli sürecə müraciət edəcək. Bunu bildiyi üçün yolunu "təmizləyir"... Bunu bildiyi üçün müxalifət də "təmizlik" hədəfi olmaq istəmir; manevr edir, yayınır, gözləyir. Və həm də "sistemin" elementi olmaq üçün mübarizə aparır...

Bizdəki məlumata görə, bu prosesdə ən önəmli rol gələcək "xüsusi seçilmiş parlament"ə veriləcək. Yəni 2015-ci ildə seçiləcək parlament ölkənin taleyində "ASAN xidmət" qədər önəm daşıyacaq.

**Bəs bu saziş nə zaman imzalanacaq, "təmizlənmə" nə zaman açılıma keçəcək?**

**Mehman Əliyev bu barədə deyir:** "Hakimiyyət sürətli dəyişikliklərə hazır deyil. Çünki bunun arxasında ciddi məmurların müəyyən maraqları dayanır. Bu da prosesi müəyyən qədər yox, əhəmiyyətli dərəcədə ləngidir".

O hesab edir ki, proseslərin buraya qədər ləngiməsinin səbəbi də budur.

**Lakin limit artıq dolub...**

**❑ T.TURANÇI,**
**Aygün MURADXANLI**

# Obamadan Rusiyaya sərt mesajlar

**ABŞ prezidenti Barak Obama Tallində 3 Baltikyanı dövlətin başçısı ilə görüşüb. O, çıxışında ABŞ-ın Suriyadakı siyasəti, Rusiyadakı münasibət kimi vacib məsələlərə toxunub. Qeyd edək ki, Estoniyaya səfəri zamanı Obama burada ABŞ-ın 173-cü desant bazasının əsgərləri ilə də görüşüb.**

ABŞ prezidenti Barak Obama ABŞ Hərbi Hava Qüvvələrinin Estoniyada yerləşdiriləcəyini bildirib. Məlumata əsasən, Hərbi Hava Qüvvələri Estoniyada "Amari Air Base" hərbi-dəniz bazasında yerləşdiriləcək.

"Bu gün mən deyə bilərəm ki, bu təşəbbüs təlimlərin keçirilməsi üçün əlavə Hərbi Hava Qüvvələrinin yerləşdirilməsini nəzərdə tutur. Biz hesab edirik ki, onların yerləşdirilməsi üçün ən yaxşı yer Estoniyada olan hərbi-dəniz bazasıdır" - deyə, Obama vurğulayıb.

Obama həmçinin NATO-nun Estoniya və alyansa üzv digər ölkələrin təhlükəsizliyinə dair götürdüyü öhdəlikləri yerinə yetirəcəyini bildirib.

"Bizim öhdəliklərimiz var..... Bu öhdəliklər daimidir. Estoniya heç bir zaman tək qalmayacaq. Mən əminəm ki, biz bu öhdəlikləri yerinə yetirəcəyik" - deyə, Obama bildirib. Lakin ABŞ prezidenti Estoniyanı kimdən qoruyacaqlarını açıqlamayıb.

ABŞ prezidenti eyni zamanda Ukraynada elan olunan atəşkəs barədə də danışıb. O, hələ bunu qiymətləndirməyin çox tez olduğunu bildirib.

"Hələlik atəşkəsin nə anlama gəldiyini demək olduqca tezdir. Biz bu barədə detallarla tanış olmamışıq" - deyə, Obama bildirib.

Estoniya səfərindən sonra Amerika prezidenti NATO sammitinə qatılmaq üçün Uelsə yola düşəcək.

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014



# Rusiya - Ukrayna savaşından qazanan Azərbaycan oldu

**Azər RƏŞİDOĞLU**

**Rusiya - Ukrayna savaşı haradasa Azərbaycanın xeyrinə oldu. Belə ki, Moskva bütün gücünü Ukraynanı diz çökdürməyə yönəldib. Kremlin "Ukrayna hikkəsi" aralıq müddətə olsa da, Azərbaycanı unutdurub. Başı Kiyevlə qanlı savaşa qarışan Moskva Bakıya təzyiq və təhdidlərini bir qədər səngitmək zorunda qalıb. Bu isə vaxt udmaq baxımından Azərbaycana sərf edir.**

Rusiya üçün Ukrayna cəbhəsində qalib gəlmək son dərəcə vacibdir. Ukrayna Avroatlantik məkana inteqrasiya yolunu seçib. Bu isə Kremlin imperiya iştahasına ağır zərbədir. Odur ki, Rusiya şərqi Ukrayna əhalisini qiyama qaldırıb, ölkəyə açıq hərbi müdaxilə edir və bu slavyan ölkəsini parçalamaq istəyir.

Bir sözlə, Ukraynada Qərb-Rusiya qarşıdurmasının həlledici mərhələsi yaşanır. Qərb Ukraynanın işğalına imkan vermək istəmir. Bu anlaşılandır. Ukrayna Avropanın bir hissəsidir. Qərb Rusiyanı Avropada müstəmləkə yaratmaqdan məhrum etmək istəyir. Göründüyü kimi, Qərb və Rusiya Ukraynanın bölüşdürülməsi prosesində iştirak edirlər. Bu proses Azərbaycanı unutdurur.

Yaranmış vəziyyətdə daha bir sual meydana çıxır - Qərb Azərbaycanı Avropanın bir hissəsi kimi qəbul edirmi? Görünən budur ki, Ukraynaya, Moldovaya və yaxud xristian Gürcüstana ayrılan diqqət müsəlman Azərbaycana ayrılmır. Azərbaycanın bir neft ölkəsi olaraq qalmasında elə Qərbin özü maraqlıdır.

Baxmayaraq ki, supergüclər Azərbaycanı bir müddətə "başlı başına" buraxıblar, ölkə yenə də Rusiyanın mənəvi və fiziki müstəmləkəçiliyindən xilas ola bilmir.

Əgər, Bakı Moskvanın təzyiqləri qarşısında geri çəkilsə, bu, Birləşmiş Ştatların nüfuzuna ciddi zərbə demək olardı. Digər tərəfdən, İran gələn il Azərbaycandan tam arxayın olmaq istəyəcək. Məhz gələn il İranla bağlı problem daha qabarıq şəkildə özünü göstərəcək. Odur ki, 2015-ci ilin İran-Azərbaycan münasibətlərində də ciddi gərginliklərə səbəb ola biləcəyini ehtimal edə bilərik.

Bir sözlə, Azərbaycanı təlatümlü bir il gözləyir. İstər daxili siyasətdə, istərsə də diplomatiyada hakimiyyət mühüm dəyişikliklər etməyə məhkumdur. İqtidarın atacağı addımlar yaxın illər ərzində ölkənin taleyinə təsir göstərə bilər. Bu baxımdan, kiçik bir səhv son dərəcə ciddi problemlərə səbəb ola bilər. Bunu Azərbaycan hakimiyyəti özü də dərk edir. Lakin nələrisə dəyişməyə həvəsli görünmür. Lakin 2015-ci ildə isə rəsmi Bakı dəyişikliklərə getmək məcburiyyətində qalacaq. Ən azı parlament seçkiləri qədər hakimiyyət bunu etməlidir. Bu məsələdə gecikmək özü də fəsadlara yol aça bilər.

Odur ki, 2015-ci ilin əvvəllərindən Azərbaycan hakimiyyəti zəruri addımları atmaq zorunda qala bilər. Son günlər artmaqda olan repressiyalar da ola bilər ki, elə buna hesablanıb.

Gələn il Bakıda Avropa yay oyunları keçiriləcək. Bu tədbirin baş tutması hakimiyyətin Qərbə doğru addımlamaq jestinin də xəbərçisi sayıla bilərdi. Görünən budur ki, Rusiya buna maneçilik törətmək istəyəcək.

Bu baxımdan, ehtimal etmək olar ki, növbəti il Qərb-Rusiya qarşıdurmasının Azərbaycan mərhələsi başlaya bilər. Odur ki, o zamana qədər geosiyasi seçim etmək lazım gələcək...

# Müxalif partiyalar Demokratiyanı Müdafiə Xartiyası imzaladı

## BHMM-in toplantısında yerli və beynəlxalq təşkilatlara müraciət ünvanlanıb

**Sentyabrın 3-də KXCP qərargahında ölkəmizdə baş verən son həbslərlə bağlı siyasi qüvvələrin birgə yaratdığı Birləşmiş Hüquq Müdafiə Mərkəzinin (BHMM) növbəti toplantısı keçirilib. Tədbirdə müxalifət partiyalarının liderləri, təmsilçiləri və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.**



BHMM-in sədri Mirmahmud Mirəlioğlu toplantıda 10 siyasi partiya lideri və təmsilçisinin iştirak etdiyini qeyd edib. Daha sonra çıxış edən **Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn** hazırda həbsdə olan bəzi vicdan məhbuslarının səhhətlərində həyatları üçün ciddi təhlükələr yarandığını bildirib. AXP sədri bununla bağlı BHMM-in yerli və beynəlxalq təşkilatlara müraciət ünvanlamasının vacibliyini vurğulayıb: "Artıq bizə həbs edilən bəzi şəxslərin səhhətlərində həyatları üçün təhlükələr yarandığı barədə məlumatlar çatır. Təklif edirəm ki, bununla bağlı Prezident Administrasiyasına, Baş Prokurorluğa, Ədliyyə Nazirliyinə, ATƏT-ə, Avropa Şurası və Avropa Birliyinə, Qırmızı Xaç Komitəsinə müraciət ünvanlayaq. Leyla və Arif Yunus, İntiqam Əliyev, Mövsüm Səmədov və başqa məhbusların vəziyyəti çox ağırdır. Belə məhbusların siyahısını hazırlamalıyıq. Bunların xarici ölkələrdə səhhətləri ilə bağlı müalicə olunmalarını təklif edək".

**ADP sədri Sərdar Cəlaloğlu məhbusların xarici ölkələrdə müalicə olunmaları təklifi ilə razılaşmayıb:** "Dövlətin belə bir borcu yoxdur. Təklif edək ki, bu insanların həyatı baxımından təhlükə olsa, məsuliyyət aidiyyəti orqanların üzərinə düşsün".

**Müsavat başqanı İsa Qəmbər müraciətin beynəlxalq təşkilatların bu məsələyə diqqət ayırması baxımından önəmli olduğunu bildirib:** "Biz bu müraciəti ona görə hazırlayırıq ki, beynəlxalq təşkilatlar bu məsələyə səmərəli yanaşmaq üçün vacib addımlar atsınlar. Çünki beynəlxalq təşkilatlar öz mövqelərini qoyan zaman iqtidar bildirir ki, bu insanların hələ məhkəmələri gedir. Onlar da məcbur olub, hakimiyyəti ədalətli məhkəmə keçirməyə çağırırlar. Hamımız bilirik ki, ölkəmizdə ədalətli məhkəmə sistemi yoxdur. Amma xəstəlik imkan verir ki, beynəlxalq təşkilatlar mövqe qoysunlar. Bu, eyni zamanda hakimiyyətə öz simasını qorumaq məqsədi ilə bəzi insanları azadlığa buraxmaq imkanı verir. Biz siyasi məhbusların azadlığa çıxmasını istəyirik. Əvvəl həbs olunanların müəyyən qədər azadlığa çıxma şansları var. Amma yeni həbs edilənlərin buraxılma şansları yoxdur. Azərbaycan hakimiyyətinin tərsliyindən hamının xəbəri var. İqtidar 1 ay həbs edilən adamı azadlığa heç zaman buraxmaz. Bu müraciətin humanist tərəfləri bundan ibarətdir".

Daha sonra tədbirdə çıxış edən partiya liderləri edilən təklifləri razılaşaraq, hazırlanan sənədə öz imzalarını atıblar. Beləliklə, yerli və beynəlxalq təşkilatlara rəsmən müraciət ünvanlanıb.





**Toplantının əsas mühüm hissələrindən biri "Demokratiya müdafiəsi haqqında" Xartiyanın qəbul edilməsi olub. İştirak edən hər bir partiya hazırlanan sənədə imza atıblar. Klassik Xalq Cəbhəsi, Müsavat, Demokrat, Ümid, Azadlıq, Böyük Azərbaycan, Vətəndaş və İnkişaf, İslam, Liberal Demokrat, Xalq partiyalarının sentyabrın 3-də imzaladığı Demokratiyanı Müdafiə Xartiyasında deyilir:**

Bu Xartiyanı imzalayan siyasi partiyalar:

Demokratiya və insan haqları məsələsini prioritetliyini qəbul edərək,

Azərbaycan cəmiyyətinin demokratikləşməsinin ölkənin milli təhlükəsizliyi və ərazi bütövlüyünün təmin edilməsi, Qarabağ probleminin həlli üçün həyati əhəmiyyətini vurğulayaraq,

Son dövrdə Azərbaycanda insan haqları və demokratiya sahəsində vəziyyətin pisləşdiyini, siyasi məhbus probleminin kəskinləşdiyini göstərərək,

QHT-lərin hazırladığı vahid siyasi məhbus siyahısını dəstəklədiklərini bəyan edərək,

Azərbaycanda siyasi məhbusların olmasını yolverilməz hesab edərək və siyasi məhbuslarsız Azərbaycan hədəfini bəyan edərək,

Ölkənin demokratik inkişafı, əsas insan hüquq və azadlıqlarının təmin edilməsi üçün vətəndaş cəmiyyəti təsisatlarının mövcudluğu və fəaliyyətinin mühüm əhəmiyyətini nəzərə alaraq, rəsmi hakimiyyətin QHT-lər üzərinə qanunsuz və əsassız hücumlarını, fəaliyyətlərinə əngəl törədən məhdudiyyətlərin tətbiq edilməsini, təqib və sıxışdırmasını pisləyərək və bunlara son qoyulmasını tələb edərək,

Hakimiyyətin azad və ədalətli seçkilər yolu ilə formalaşdırılmasını demokratikləşmə və insan hüquq və azadlıqlarının təmini üçün əsas siyasi vasitə hesab edərək,

Azərbaycanda mövcud siyasi durumun hakimiyyətin dinc yolla əvəzlənməsini qeyri-mümkün etdiyini bildirərək və bu vəziyyətin aradan qaldırılması üçün köklü demokratik islahatlar paketi hazırlanması və gerçəkləşdirilməsini zəruri sayaraq, bu sahədə öncəlikli vəzifənin seçki islahatı həyata keçirilməsi və ictimai etimada malik seçki komissiyalarının formalaşdırılmasından ibarət olduğunu bəyan edərək,

Demokratikləşdirmə və insan haqlarının müdafiəsi sahəsində cəmiyyətin demokratik müqavimətinin təşkili üçün siyasi partiyaların səylərinin birləşdirilməsi, birgə səy və təşəbbüslərini zəruri sayaraq aşağıdakılar barədə razılığa gəlirlər:

**1.** Ölkədə demokratiya və insan haqlarına dair müntəzəm, sistemli və davamlı məşvərət-məsləhətləşmələrin keçirilməsi, ictimai-siyasi məsələlər barədə razılaşdırılmış mövqe və münasibətlərin ifadə edilməsi məqsədilə Demokratiya və İnsan Haqları Mərkəzi təsis edilir.

**2.** BDİHM-ə qanunvericiliyə müvafiq olaraq dövlət qeydiyyatından keçmiş və ya təsis qurultaylarını keçirərək, təsis sənədlərini müvafiq icra hakimiyyəti orqanına təqdim etmiş siyasi partiyalar daxil olur.

**3.** Özünü siyasi partiya kimi bəyan edən digər təsisatlar təsisçilərin razılığı ilə BDİHM-in tədbirlərində məşvərətçi statusla iştirak edirlər.

**4.** BDİHM QHT-lər, gənclik hərəkatı təşkilatları, ziyalılar, tanınmış ekspertlər, mütəxəssislər, vəkillər, jurnalistlər üçün açıqdır.

**5.** BDİHM-in sənədləri, qərarları məşvərətçi xarakter daşıyır və həmin sənədləri imzalamış siyasi partiyaların rəyini ifadə edir. Hər bir siyasi partiya bu məsələlər barədə öz mövqeyi, qeyd şərtləri ilə çıxış edə bilər və bunları ictimailəşdirə bilər.

Bundan əlavə, tədbirdə son həbslərə etiraz olaraq, piket, yaxud mitinq keçirmək təklifləri də səslləndirilib.

Yekunda sentyabrın 17-də saat 12:00-da ADP qərargahında son zamanlarda Azərbaycanda baş verən kütləvi həbslər, media institutlarının bağlanması, mətbuata olan hücumlar, demokratiyanın məhdudlaşdırılması ilə bağlı "Azərbaycanda Demokratiyanın vəziyyəti" adlı tədbir keçirmək qərara alınıb. BHMM-in sədri Mirmahmud Mirəlioğlu tədbirə dəvət üçün ölkədəki bütün demokratik düşərgəyə məktub ünvanlayacağını qeyd edib.

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014

# Azərbaycan və Ermənistan prezidentləri NATO sammitində görüşə bilər

## Erməni mənbələr prezidentlərin görüşəcəyi xəbərini yaydı; rəsmi Bakı xəbərsizdir



**"Uels sammiti NATO üçün digər sammitlərdən fərqlidir. Çünki artıq İkinci Dünya müharibəsindən sonra demokratik Avropa ölkələrinin təhlükəsizliyini bu qədər təhdid edən bir tarixi proses olmamışdı". NATO əməkdaşlıq institutunun rəhbəri Fərrux Məmmədov musavat.com-a açıqlamasında sentyabrın 4-5-də Uelsdə (Böyük Britaniya) keçiriləcək NATO sammitindən gözləntilərini bölüşərkən belə deyib. Onun fikrincə, Rusiyanın aqressiyası və açıq şəkildə təhdid halına çevrilməsi bu sammitdə çox mövzunun bağlı qapılar arxasında müzakirəyə çıxarılması zərurətini yaradacaq:**

"Təbii ki, əsas müzakirə olunan məsələlər NATO ölkələrinin və tərəfdaş dövlətlərin təhlükəsizliyi olacaq. Onları Rusiya aqressiyasından qorumaq, Əfqanıstan məsələsi, terrorizmlə mübarizə, NATO-nun Şərqə doğru genişlənməsi, tərəfdaş ölkələrin NATO-ya inteqrasiyası və yeni üzvlər haqda müzakirələr gedəcək".

**F.Məmmədov hesab edir ki, hazırda NATO üçün ən önəmli olan Avropanın təhlükəsizliyi və tərəfdaş ölkələrin təhlükəsizliyidir:** "Düşünürəm ki, Avropada yeni NATO hərbi bazalarının yaradılması qəbul olunacaq qərarlar sırasında ola bilər. Əgər rus təhlükəsi sovuşmasa, NATO Ukraynaya açıq şəkildə hərbi yardım edə bilər. Bu da müzakirə olunacaq məsələlər sırasındadır. Bu gün İraqda baş verən hadisələrə müdaxilə oluna bilər. Təbii ki, əgər İraq dövləti bunu rəsmi şəkildə istərsə. Lakin güman edirəm əsas məsələ təhlükələrdən qorunmaq üçün qəbul olunacaq yeni strategiya olacaq".

**Ekspert güman edir ki, NATO sammitində həmçinin Rusiyanın bütün sahələr üzrə təcrid edilməsi də müzakirə olunacaq:** "Məsələn, Avstraliyanın baş naziri təklif göndərib ki, Rusiya G 20-dən çıxarılsın. Sammitdə 50-dən artıq dövlət rəhbəri və rəsmilər olacaq. Onlar da Rusiyanın Ukraynaya təcavüz siyasətini dəstəkləmirlər. Əgər Ukrayna bu sammitdə rəsmi olaraq NATO-ya müraciət ünvanlayarsa, rəsmi Kiyev Alyansın yolunu seçdiyi üçün NATO rus təhlükəsinə qarşı onu tam qoruyacaq. Başqa halda bu, açıq şəkildə mümkün deyil. Çünki bildiyim qədər keçmiş prezident Yanukoviç prezidentlik dönəmində NATO ilə əməkdaşlığı durdurmuşdu. Lakin bu, Ukrayna üçün tarixi bir zamandır. Əgər rəsmi olaraq NATO ilə də saziş imzalarsa, o zaman artıq rus təhlükəsindən qorxmaq lazım gəlməyəcək".

ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik "Turan"a müsahibəsində Azərbaycan və Ermənistan prezidentlərinin NATO-nun Kardif sammitində görüşə biləcəklərini deyib. Onun bu açıqlamasını isə Ermənistan Prezident Administrasiyası nə təsdiq, nə də təkzib edib. Modern.az saytı xəbər verir ki, "Aykakan Jamanak" qəzeti Ermənistan hökumət mənbələrinə istinadən prezident Serj Sərkisyanın NATO-nun Uelsdə keçiriləcək sammiti çərçivəsində Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşə razılıq verdiyini yazıb.



Virtualaz.org saytı isə Ermənistan prezidenti administrasiyasına yaxın mənbəyə istinadən xəbər verir ki, prezident Serj Sərkisyan bu həftə Azərbaycan prezidenti İlham Əliyevlə Uelsin paytaxtı Kardifdə, NATO sammiti çərçivəsində görüşməyə razılıq verib. "Jamanax" qəzetinin yazdığına görə, görüşün təşəbbüskarı ABŞ dövlət katibi Con Kerridir. Prezidentlər C.Kerrinin vasitəçiliyi ilə görüşəcəklər. NATO sammiti sentyabrın 4-də başlayır, ora alyansa üzv ölkələrin və tərəfdaş ölkələrin prezidentləri dəvət olunub. Rusiyaya isə dəvət göndərilməyib. Azərbaycan və Ermənistan prezidentlərinin NATO sammiti çərçivəsində görüşə biləcəkləri haqda bugünlərdə Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bildirmişdi.

Rəsmi Bakı hələlik bu görüşün mümkünlüyünü şərh etmir. Eləcə də Ermənistan tərəfi prezidentlərin görüşünün razılaşdırıldığını rəsmən təsdiq etməyib.

Hesab olunur ki, ABŞ Qarabağ münaqişəsi ətrafındakı proseslərdən təcrid olunmaq istəmir və Rusiyanın ardınca prezidentlərin görüşü üçün vasitəçilik edir. Bununla belə, Kardiff görüşünün baş tutacağı hələ dəqiq məlum deyil.

**Prezidentin mətbuat katibi Azər Qasımov "Yeni Müsavt"a açıqlamasında prezidentlərin görüşünün hazırlanmasından məlumatsız olduğunu bildirdi:** "Məndə görüş barədə heç bir məlumat yoxdur".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov da tədbirdə Azərbaycanı kimin təmsil edəcəyi barədə məlumatının olmadığını dedi:** "NATO sammitində dövlət başçıları və hökumət üzvləri iştirak edir. Odur ki, bu barədə məlumatım yoxdur". **YAP funksioneri sammitdən gözləntilərini də bölüşdü:** "NATO sammitində Ukrayna və Gürcüstanın NATO-ya üzvlüyü, Rusiya-NATO münasibətləri əsas müzakirə mövzusu olacaq". S.Novruzov Azərbaycanın NATO ilə bağlı belə bir hədəfinin olmadığını bildirdi: "Azərbaycan NATO ilə əməkdaşlıq edir. Silahlı Qüvvələrimiz, Dövlət Sərhəd Qoşunlarımız NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramında iştirak edir, xüsusi təlimlər keçirlər. Zabitlərin təhsil alması, kurslar keçirməsi, yeni silahların tətbiqi məsələsində də geniş əməkdaşlıq var. Ancaq NATO-ya daxil olmaq haqda müzakirə etməmişik". YAP təmsilçisi sammitdə Qarabağ məsələsinin müzakirə olunacağı ilə bağlı gözləntilərə də münasibət bildirdi: "NATO Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, tanıyır, bununla bağlı da qərarı var".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir ki, NATO-nun Uelsdə keçiriləcək sammiti ilə bağlı elə böyük gözləntiləri yoxdur:** "Tədbirdə əsas iki məsələnin - Ukraynadakı durumun və İŞİD terrorçu qruplaşmasının bölgə üçün yaratdığı təhlükənin müzakirə olunacağını düşünürəm. Ancaq bu iki mövzuyla bağlı NATO sammitində konkret qərarların əldə ediləcəyinə şübhəylə yanaşıram. NATO ölkələrinin Rusiyaya qarşı sanksiyaları nəticə vermədi və Şimali Atlantika Bloku Moskvanın irticaçı planlarına qarşı mübarizədə hələ ki bundan artığına hazır deyil. NATO-nun Baltikyanı ölkələrdə yeni hərbi bazalar yerləşdirməsi qərarı da Kremli qorxutmur. Ən ciddi addım Ukraynaya NATO-nun qapılarının açılmasının elanı olardı ki, buna da Şimali Atlantika Bloku hələ hazır deyil. İŞİD-lə mübarizədə də hələ ki yekdillik yoxdur. İŞİD İraqı, Suriyanı tar-mar edir, minlərlə günahsız insanı qətlə yetirir, Qərb isə hələ ortaya konkret plan qoya bilmir. Vaşinqtonun yeni təşəbbüsü bundan ibarətdir ki, İŞİD-ə qarşı beynəlxalq koalisiya formalaşdırılmalıdır. Bəli, buna ehtiyac var, ancaq Avropa dövlətləri astagəldirlər, buna görə də NATO çərçivəsində qərarların qəbulu gecikir".

❑ **E.PAŞASOY**

# Qubad İbadoğlunun təbliğat görüşü keçirildi

## Görüşdə iştirak edənlər sırasında Arif Hacılının və Tural Abbaslının da yaxınları iştirak edib

**Müsavat Partiyasının qurultayı yaxınlaşdıqca başqanlığa iddiaçılar müxtəlif üsullarla seçki təbliğat kampaniyasına başlayırlar. Hələ ki başqanlığa namizədliyini irəli sürən təkcə Tural Abbaslı olsa da, namizədliyi rəsmi qaydada irəli sürülməyən və qeydə alınmayan iddiaçılar sırasında da təbliğata başlayanlar var. Məsələn, Qubad İbadoğlu srağagün Müsavat Partiyasının qərargahında partiyanın Səbayel və Yasamal rayon təşkilatlarının bir qrup üzvü ilə görüş keçirib.**

Görüşdə Qubad İbadoğluna çoxsaylı maraqlı suallar ünvanlanıb və başqanlığa namizəd onlara cavab verib. Görüşdən yayılan fotoşəkillərdə bir sıra tanınmış müsavatçıların, sabiq Divan üzvlərindən Hikmət Hacızadənin, Adil Qeybullanın, Divan üzvləri Vurğun Əyyub, Almaz Əliqızı, Nüşabə Sadıqlı və Gülağa Aslanlının da iştirak etdiyi məlum olur. Q. İbadoğlu özünün facebook səhifəsində yerləşdirdiyi məlumatda bildirir ki, o, partiyanın veteranları, tanınmış simaları - Vurğun Əyyub, Hikmət Hacızadə, Nüşabə Sadıqlı, Almaz Əliqızı, Sədaqət Paşayeva görüşdə çıxış edərək, toplantı iştirakçılarında yüksək əhval-ruhiyyə, gələcəyə inam və nikbinlik yaradıblar.

### Tural Abbaslıdan rəqiblərinə sətiraltı mesajlar

**Görüşdə iştirak edən Hikmət Hacızadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Qubad İbadoğlunun namizədliyini dəstəkləyir. Həmin görüşdə də təsadüfən iştirak və çıxış etməyib:** "Mən Səbayel rayon təşkilatının üzvüyəm, eyni zamanda Qubad İbadoğlunu dəstəkləyirəm. Digər namizədlər keçirəcəkləri görüşlərə məni dəvət etsələr qatılacağam. Ancaq Qubad İbadoğlunu müdafiə edirəm. Qubad bəylə görüşdə çıxışımda da dedim ki, namizədlərimiz hamısı başqanlığı haqq edirlər və partiyamız üçün çox vacib adamlardır. Ancaq bu repressiya dövründə Qubad bəy ziyalı adamdır ki, öz intellekti ilə bizi qorusun. Bizim fiziki gücümüz yetərli deyil, ona görə də bizə intellektual, mənəvi güc toplamaq lazımdır. Bu cəhətdən isə Qubad İbadoğlu daha yaxşı namizəddir. Ola bilsin ki, başqa zaman olsaydı, repressiyalar dövrü olmasaydı başqa adamı dəstəkləyərdim".

**Müsavat Divanının sabiq üzvü Adil Qeybulla isə "Yeni Müsavat"a bildirdi ki, dəstəklədiyi şəxslə keçirilən görüşdə iştirakı normal qarşılanmalıdır:** "Hazırda başqanlığa iddiasını ortaya qoyan, iş aparan dörd nəfərdir. Bu şəxslərin hər biri başqan olmağa layiqdir. Hər bir şəxsin keçdiyi yol, partiyada göstərdiyi fədakarlıq, siyasi fəaliyyəti başqan olmalarına imkan verir. Bu baxımdan biz namizədlərə xüsusi fərq qoymuruq və təbii ki, onlara səsi qurultay verəcək. Amma hər kəsin dəstəklədiyi bir namizəd var və həm də dəstək məsələsində hər şəxsin öz arqumentləri var.



Qubad İbadoğlu

Mən də Qubad İbadoğlunun namizədliyini dəstəkləyirəm. Çünki onun beynəlxalq əlaqələri, ölkə daxilində və partiyadakı fəaliyyəti, nisbətən gənc olması, yeni nəsillə köhnə nəsil nümayəndələri arasında körpü rolunu oynaya bilməsi, ingilis dilini bilməsi üstün tərəfləridir. Bu yaxınlarda Qubad bəy Qırğızıstan parlamentində çıxışlar edib, baş nazirə müşavirlik edib. Bütün bunlar partiyanın yeni imic qazanmasına, passianar təşkilata çevrilməsinə, yenidən canlanmasına gətirib çıxara bilər. Bu baxımdan hesab edirəm ki, bu daha məqbul variant və həm də partiyanın uduşu olardı. Hər birimiz çalışmalıyıq ki, bu seçki sınağından Müsavat üzü ağ çıxsın".

**Müsavat Partiyasının Divan üzvü Vurğun Əyyub da Qubad İbadoğlunu dəstəkləyir. Görüşdə də Qubad bəyin yanında əyləşib və müsavatçılara Qubad İbadoğluna səs vermək çağırışı edib. V.Əyyub Q.İbadoğlunu alman filosofu Karl Yaspersin söylədiyi tələblərə tam cavab verən namizəd kimi xarakterizə edib:** "Yaspers yazırdı ki, səbr, inadcıllıq, dəyanət - siyasi xadim üçün zəruri olan xüsusiyyətlər bunlardır. Səbr - onun şəxsi inciklikləre yad olan mənəvi mövqeyi ilə bağlıdır: o, həmişə ümuminin maraqlarından çıxış edir, dəlilləri götür-qoy edir və önəmli olanla önəmsiz olanı seçir. Bu, səbr, gözləmə və ümidin mənasız göründüyü zaman dəyişməz olan diqqətdə özünü göstərir; o, saatlarla şikarı güdən, ancaq tülkü meşə talasına çıxan anda saniyənin bir hissəsində tüfəngi qaldırıb tuşlamalı və atəş açmalı olan pusqudakı ovçunun səbrinə bənzəyir! Müsavat Partiyasının başqanlığına namizəd Qubad İbadoğlu Yaspersin söylədiyi tələblərə tam cavab verən namizəddir".

**Hələlik yeganə rəsmi namizəd olan Tural Abbaslı isə "Yeni Müsavat"a açıqlamasında Qubad İbadoğlunun təbliğat görüşü keçirməsini normal qarşıladığını və burada qeyri-adi nə isə görmədiyini dedi:** "Nə partiyanın nizamnaməsində, nə də Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin qəbul elədiyi sənəd və təlimatlarda namizədliyi rəsmi qeydə alınmayan şəxsin bu və ya digər formada təbliğat aparmasına qadağa qoyan müddəa yoxdur. Ona görə də iddiasını şifahi şəkildə ifadə edən partiya üzvü də partiyadaşları ilə görüş keçirə bilər. Həmin görüşdə iddiaçı çıxış edə və namizədliyini verib-verməmək üçün belə görüşləri bir sınaq kimi nəzərdə tuta bilər. Sadəcə, burada bir nüans var. Belə görüşlərdə kimlərinsə durub hələ rəsmi namizəd olmayan kiməsə səs verməyə çağırmaları qəribə görünür. Orada bir adam durub desəydi ki, filan bəy, sən bizi filankəsə səs verməyə çağırırsan, birdən sabah həmin şəxs namizədliyini verməsə necə olacaq, çağırışı edən nə cavab verəcəkdi. Ona görə də, məncə, namizədliyini rəsmən irəli sürməyən və qeydə alınmayan şəxsə səs vermək çağırışları yersiz görünür.

Böyük ehtimalla növbəti həftənin ikinci günü mən də Səbayel və Yasamal rayon təşkilatının üzvləri ilə görüş keçirəcəyəm. Qubad bəydən fərqli olaraq mən rəsmi namizədəm və görüşlər keçirəcəyəm. Mən Qubad İbadoğlu ilə keçirilən görüşdə iştirak edənlərin hamısını dəvət edəcəyəm. Seçimi onlar edəcəksə, bütün namizədləri eşitməlidirlər ki, müqayisə eləmək imkanları genişlənsin. Lakin mən keçirdiyim görüşlərdə öz yerimə başqalarını çıxış etməyə dəvət eləməyəcəm. Çünki namizəd mənəm və insanlar bura mənim fikirlərimi dinləməyə gəliblər, başqalarının yox. Ona görə də görüşdə əsas ağırlıq mənim olacaq, çıxış edəcəyəm və sualları cavablandıracağam. Öz sözümüzü özümüz deyəcəyik. Mən özümə, iradəmə arxayınam. Namizədliyimi ilk gündən irəli sürməyim və tərəddüd keçirməməyim də bundan irəli gəlir. Aylardır iddialarını tez-tez bəyan edib indi namizədliyini rəsmi irəli sürməyə tərəddüd etmək bizlik deyil".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 221 (5920) 4 sentyabr 2014



# Ərdoğan BDU-nu bağlatdıracaq!

Zamin HACI
zaminhaci@gmail.com

**Dedilər Türkiyədən Ərdoğan gəlib, Azərbaycanda xeyli adamın canına vicvicə düşdü. Zarafat bir yana, Anadolunun bu "Nemət Pənahlı"sı keçən dəfə uca millətimizə elə təpik qoyub gedib ki, yerinin qızartısı hələ çəkilməmişdir. Sən təsəvvür elə, o boyda Elnur Aslanov müəllim - hansı ki, başındakı tükün sayı qədər jurnalisti basıb yemişdi - indi Prezident Aparatında yox, Rabitə Nazirliyində oturur, evdar qadınların telefon danışıqlarını tənzimləməklə məşğuldur. "Aazz, Səbiş, xətdə genə qırıqlıq var, yengənin söhbətini sonra danışaram, qoy bir Elnurikə zəng vurum düzəltsin!"; "Yaxçı, bacılı, Gülüşün 60 yaşında ərə getməyini də bilirsən də..." Bax belə. Vəziyyət bu cür dramatikdir. Hətta Elnur müəllimi kanalizasiya lyukunun üstündə oturub telefon naqilindən xalça toxuyan yerdə görüblər.**

Adı gələndə mollalar təsbeh salan Elşad İsgəndərov isə indi İstanbul aeroportunda ərəblərə araba daşıyır. *(Yeri gəlmişkən, "araba" sözü "ərəbə" sözündən yaranıbdır, ərəb gəldisə arabanı düzəlt get, ta burda dirilik olmayacaqdır mənasını verir).*

Ən böyük zəlzələ isə "Çağ" liseylərində oldu. Bir günün içində neçə dənə litseyi bağladılar, dedilər hamısı Fətullah müəllimindir, Fətullah müəllimi isə Rəcəb müəllim sevmir. Halbuki cəmi bir il qabaq Fəttah müəllim bu liseylərin yubileyi münasibətiylə alovlu təbrik çıxışı edirdi. İndi sən təsəvvür elə, zəlzələ ocağı nə təhər güclü idisə hətta FHN bir işə yaramadı! Bütün liseylər tülkü daraşmış toyuq-cücə ferması kimi darmadağın, pərən-pərən oldu, elm lələkləri göydə uçuşdu, cücələrin dümbülünü də xüsusi olaraq paketləyib AKP üçün göndərdilər. Ki, hər şey istədiyiniz kimidir, abi. Sən Ceyhan durbasını yaxşı işlət, qalan qor-qoduğa fikir vermə, bizlikdir.

İndi xalqımız tir-tir titrəyir ki, görəsən, Ərdoğan müəllim indi kimin qafasını alıb gedəcəkdir. Keçən dəfəkiləri "nurçular" adıyla basdıq, bu dəfə katolikləri işdən çıxartmaq tələb ediləcəkmi? Yaxud krişnaitləri. Nə bilərsən Ərdoğan müəllim nə istəyəcək... Hətta ola bilsin Bakı Dövlət Universitetinin yurfakını bağlamaq tələbi irəli qoydu! Ya da dedi ki, Biləcəriyə iki həftə su verilməsin! Neyləyəcəyik? Heç zad. Batıb-qırılacağıq.

Müstəqil, suveren dövlətçiliyimizdə belə hallar çoxdur. Keçən il Putin müəllim də Bakıya gəldi, ondan sonra Müxalifət Nazirliyinin şefi Rüstəm İbrahimbəyovu işdən çıxartdırdı. Halbuki yazıq Rüstəm bəy kresloya, bəyanat verməyə, Sərdar Cəlaloğlunun suratına, İqbal müəllimin dialoquna, Müsavatın qurultayına, Cəbhənin gurultayına təzə-təzə isinişirdi. Amma namərd oğlu namərd Putin gəldi, Rüstəm bəyin torbasını tikdi, uca millətimizin gələcəyə olan ümidlərini Bakı buxtasında, Bayıl qalasının xarabalıqları altında dəfn edib getdi.

Fransa prezidenti Olland müəllimin səfərindən sonra da "Legion" ordenli Leyla Yunusu və Arif Yunusu tutdular. Sən demə, Olland bizim hörmətli cənab prezidentə deyibmiş: "Mən şəhərdən çıxan kimi ikisinin də başını xıxx!" Əliylə də göstərib necə eləmək lazımdır. Çünki biz humanist dövlətik, belə işləri bacarmarıq. Biz heç Əlcəzairə girmədik ki...

Bilirsinizmi, bunlar hamısı bizim xarici siyasətin gözlə görünən, əllə tutulan, damara işləyən uğurlarıdır. Hələ gizli hissəsi də var, dövlət sirri olduğundan yazmıram. Ancaq birini yaza bilərəm, ta sizsiniz...

İki ay qabaq Nikaraquanın xarici işlər naziri Santos Lopez müəllim Bakıya gəlmişdi. Srağagün isə Xutor dairəsindəki yeraltı keçid açıldı. Sən demə, bunu Lopez bizim hökumətdən kəskin surətdə tələb edibmiş.

Ən qorxulusu isə odur ki, Gürcüstan prezidenti Bakıya gəlsin. Gürcü xəngəlinin qiyməti qalxacaq! Şəxsən mən buna dözməyəcəyəm!

# "AST Telman" borc içində batır

## Moskva meriyası Azərbaycan əsilli yəhudi oliqarxın torpaq sahəsini də əlindən alır

**Moskva şəhər hakimiyyəti Azərbaycan əsilli yəhudi oliqarx Telman İsmayılovun torpaq sahəsini əlindən almağa hazırlaşır. Virtualaz.org saytı xəbər verir ki, Rusiyada gözdən düşmüş oliqarxın 0,3 hektarlıq torpaq sahəsi Moskvanın Vozdvijenski və Nikitsk bulvarlarının kəsişməsində yerləşir. Bu ərazidə torpağın bir sotunun qiyməti milyon dollardan yuxarıdır. Torpaq sahəsi T.İsmayılovun "AST" şirkətlər qrupu tərəfindən 2004-cü ildə icarəyə götürülüb, oliqarx orada lüks hotel-apartament inşa etməyə hazırlaşırdı. Lakin Moskva meriyasının Arxitektura Şurası layihəni bəyənməyib. Şura bu ərazidə hotel inşasının ümumi arxitektor ansambla zidd olacağını bildirib.**



RBK xəbər verir ki, T.İsmayılovun icarəyə götürdüyü torpaq sahəsinin yerində "Solovinlərin evi" kimi tanınan və Moskva aristokratiyasına məxsus dörd mərtəbəli tarixi mülk yerləşirdi. Həmin mülk 1997-ci ildə sökülüb. Oliqarx onun yerində 6 mərtəbəli lüks hotel tikməyi planlaşdırıb.

Lakin Moskva meriyasının Arxitektura Şurası T.İsmayılovun layihəsini bəyənməyib və onun tikmək istədiyi hotelin ətrafdakı binalardan xeyli yüksək olacağını, bununla da Arbatın ümumi arxitektura mənzərəsinə zərər dəyəcəyini bildirib.

"İndi isə investor yoxa çıxıb, hazırda onun böyük maliyyə problemləri var. O, hamıya pul borcludur - "Bank Moskva"ya, özəl investorlara, digər strukturlara. Ona görə də biz bilmirik ki, kiminlə işləməliyik. Əgər ilin sonuna qədər "AST" şirkətləri qrupu həmin torpaq sahəsi ilə bağlı yeni layihə təqdim etməsə və ya ərazini başqa investora verməsə, biz torpaq sahəsinin geri alınması barədə qərar verməli olacağıq" - deyə, Moskva şəhərinin İnvestisiya layihələrinin reallaşdırılması və şəhər quruculuğu Komitəsinin ("Moskomstroyinvest") rəhbəri Konstantin Timofeyev bildirib.

Rieltorların qənaətinə görə, bu ərazidə T.İsmayılov üçün hotel tikintisi 140 milyon dollara başa gələ bilər. Formal olaraq hakimiyyət onunla icarə müqaviləsini hələ bir neçə il əvvəl poza bilərdi. Çünki T.İsmayılov tikinti üzrə öhdəliklərini yerinə yetirməyib.

"AST" şirkətindən isə məsələyə münasibət bildirmək istəməyiblər.

RBK qeyd edir ki, 2009-cu ildə "Çerkizovsk" bazarının Putinin göstərişi ilə bağlanmasından sonra T.İsmayılov Rusiyanı tərk edib və faktiki olaraq Moskvadakı biznes fəaliyyətini dayandırıb. "AST Telman" ləqəbli oliqarx Rusiyadakı biznes aktivlərini oğulları Ələkbər və Sərxanın, habelə qohumu Zaur Mərdanovun adına rəsmiləşdirib.

T.İsmayılovun əsas nağd gəlirləri "Çerkizovsk" bazarından daxil olduğu üçün bazarın bağlanmasından sonra onun gəlirləri kəskin azalıb. Bu yaxınlarda məlum olub ki, T.İsmayılov "Bank Moskva"ya olan 107 milyon dollar kredit borcunu ödəmək üçün Moskvada ona məxsus olan "Praqa" restoranını və "Tropikano"nu satmağa hazırlaşır.

Bu ilin iyul ayında isə Kiyevin keçmiş meri Leonid Çernovetskinin kürəkəni Sergey Yançukovun "Manqazeya" şirkəti T.İsmayılov barəsində Kipr məhkəməsinə şikayət edib. İddiada T.İsmayılovun şirkətə olan 100 milyon dollar borcunun geri qaytarılması tələb olunur. Mübahisəyə London Arbitraj Məhkəməsi son nöqtə qoymalıdır.

T.İsmayılovun Türkiyədə də işləri yaxşı getmir. Onun 1,5 milyard dollarlıq "Mardan Palace" hoteli ziyanla işləyir. İş adamı Türkiyənin dövlət bankı olan "Halk Bank"a on milyonlarla dollar borcludur.

# "Star" SOCAR-ın media qrupdakı bütün payını aldı

## Əthəm Sancak: "SOCAR öz hissələrinin hamısını bizə satdı"







**"Star" Media Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin Türkiyədəki törəmə şirkəti olan "SOCAR Turkey Enerji"nin media qrupda sahib olduğu payın hamısını alıb".**

Bunu APA-nın Türkiyə təmsilçisi ilə söhbətində "Star" Media Qrupu İdarə Heyətinin sədri, iş adamı Əthəm Sancak deyib. Ə.Sancak bildirib ki, məsələ heç bir anlaşılmazlıq olmadan həllini tapıb: "Biz onların qərarına sayğı ilə yanaşdıq. Hər şey dostluq şəraitində baş tutdu. SOCAR öz hissələrinin hamısını bizə satdı". Qeyd edək ki, "Star" Media Qrupu 2013-cü ilin aprelində "Star" qəzeti və "Kanal 24" televiziyasının daxil olduğu "Star Medya Yayıncılık", "Star Medya Ajans", "Star Matbaacılık" və "Dinamik Radyo" şirkətlərinin hər birinin hissələrinin 50%-ni "SOCAR Turkey Enerji"yə satıb.

Lakin bir müddət əvvəl "SOCAR Turkey Enerji" media fəaliyyətindən çəkilmək barədə qərar qəbul edib. ARDNŞ-in mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nizaməddin Quliyev bildirib ki, şirkət beynəlxalq biznes şirkətidir və iqtisadi səmərəliliyindən asılı olaraq, təmsil etdiyi qurum müxtəlif aktivlər alır və iqtisadi cəhətdən sərfəli olduğu halda satır.

Onun sözlərinə görə, bu, aktivlərin bazar qiymətinin dəyişkən olması və iqtisadi səmərəliliyi ilə əlaqədar məsələdir. "SOCAR Turkey Enerji" şirkətinin rəhbəri Kənan Yavuz isə mediaya sahib olduqları müddətdə ona kifayət qədər vaxt və zaman ayıra bilmədiklərini deyib: **"Türkiyənin ən böyük layihəsini həyata keçirdiyimiz üçün biz media layihələrindən çəkilməli olduq və bu layihələrdə daha böyük nəticələr əldə etmək fikrindəyik".**

# Qlobal Rəqabətlilik Hesabatı: Azərbaycan 38-ci oldu

**Sentyabrın 3-də Dünya İqtisadi Forumu «Qlobal Rəqabətlilik Hesabatı: 2014-2015» nəşrini təqdim edib. Azərbaycan Marketinq Cəmiyyətindən "Media forum" saytına verilən məlumata görə, Azərbaycan rəqabətlilik reytinqində 144 dövlət arasında 38-ci yerdədir. Ölkə MDB məkanında ən yüksək nəticə göstərib.**

Azərbaycan 7 xallıq şkala üzrə 4,53 xal toplayıb, Avropadan İtaliyanı (49-cu yer), Polşanı (43-cü yer), Rumıniyanı (59-ci yer), qonşu ölkələrdən Türkiyəni (45-ci yer), Gürcüstanı (69-cu yer) və İranı (83-cü yer) qabaqlayıb. Ölkə keçmiş sovet məkanından yalnız Estoniyadan (29-cu yer) aşağıda qərarlaşaraq Litvanı (41-ci yer) və Latviyanı (42-ci yer) da arxada qoyub.

«Qlobal Rəqabətlilik Hesabatı: 2014-2015» nəşrinə görə, dünyanın ən rəqabət qabiliyyətli ölkəsi İsveçrədir. İlk beşlikdə Sinqapur, ABŞ, Finlandiya və Almaniya da yer alır.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014



# Kreml Qarabağ məsələsində şantaj siyasətinə qayıdır

## Rusiya Azərbaycana qarşı köhnə təhdid vasitələrini yenidən işə salıb; dünyanı “Kiyevi iki həftəyə tuta bilərəm”, “Qazaxıstan adında dövlət olmayıb” kimi təhdidlərlə və nüvə silahları ilə hədələyən Putin üçün Azərbaycan da hədəflərin ön sırasındadır; Bakı yeni çağırışlarla üz-üzə...

**Sentyabrın 2-də ermənilər separatçı Dağlıq Qarabağ rejiminin “müstəqilliyinin” 23-cü ildönümünü qeyd ediblər. Bu müddətdə düşmən ölkə, dünyadakı nüfuzlu erməni lobbisi əlindən gələni eləsə də, ikinci saxta erməni dövlətini dünya birliyinə tanıtmaq mümkün olmayıb. Səbəblər çoxdur. Onlardan ən əsaslarını tezis kimi xatırlatmağa dəyər.**

Birinci səbəb Azərbaycanın həm Rusiya, həm də Qərb üçün daha önəmli dövlət olması reallığıdır. İkincisi, Qarabağ məsələsinin Kremlin əlində müstəsna olaraq, Azərbaycanla Ermənistanı nəzarətdə saxlamaq vasitəsi kimi qalmasıdır. Üçüncüsü, nə qədər qəribə olsa da Qərbin də əlində problemin Azərbaycan və Türkiyəyə əlavə təzyiq vasitəsi qismində istifadəsi, iki ölkənin “qədərindən çox güclənməsini” önləyən bir rıçaq kimi mövcudluğudur - amma müvəqqəti rıçaq kimi.

Bu halların heç birində tanınmadan söhbət getmir, çünki tanınma hər şeyin - prosesin, maraqların, danışıqlar və diplomatiyanın sonu, nöqtə deməkdir, tərəflərə Rusiya və Qərbin təsir imkanlarının birdəfəlik aradan qalxması deməkdir. Sözsüz ki, erməni xalqının öz müqəddəratını çoxdan təyin eləməsi faktı da “tanınma məsələsi”ndə separatçıların və işğalçıların xeyrinə işləmir.

Dağlıq Qarabağ məsələsindən ən çox siyasi-iqtisadi fayda götürən isə əlbəttə ki, hər iki tərəfi silahlandırıb varlanan, eyni zamanda regionu və Qərbi özünəməxsus şəkildə təhdid edən Rusiyadır. Başqa dividentlər də var. Misal üçün, rəsmi Bakı həllini tapmayan konflikt üzündən illərdir birmənalı qərbpərəst, NATOyönlü kurs götürə, dünya iqtisadiyyatına və NATO hərbi sisteminə ölkəni inteqrasiya eləməkdən çəkinir.

Əlelxüsus indi - Putinin qılıncının tiyəsinin də kəsdiyi zamanda Qarabağ kartı Moskvaya hava-su kimi gərəkli görünür. Problemin açarlarından biri isə şübhəsiz, Moskvanın əlindədir. Rusiya vaxtaşırı bu reallığı nümayiş etdirib Azərbaycana mesajlar göndərməyi də unutmur. Onlardan biri də ara-sıra qondarma qurumu tanıya biləcəyi ilə bağlı dövriyyəyə buraxılan fikirlər və ya Azərbaycan əleyhinə mediada gedən təxribat xarakterli materiallardır.

Təbii ki, söz-ifadə azadlığının olmadığı Rusiyada rəsmi Kremlin rüsxəti olmadan belə yazıların getməsi mümkün deyil. Necə ki, bir ara Azərbaycanı Avrasiya layihələrinə həvəsləndirmək üçün Rusiya KİV-lərində ölkəmiz haqda müsbət ruhlu materiallar gedirdi. LDPR lideri Vladimir Jirinovskinin Azərbaycan haqda qəfildən müsbət fikirlər söyləməsi də həmin dönəmə təsadüf edir.

Amma Bakının yola gəlməzliyini görən Moskva deyəsən, valı yenə dəyişib. Məsələn, sentyabrın 2-də Rusiyanın iqtidara yaxın “RİA Novosti” Beynəlxalq İnformasiya Agentliyi *(baş direktor Putinin “əl jurnalisti” Dmitri Kiselyov, baş redaktoru isə ermeni Marqarita Simonyan-dır)* Azərbaycana qarşı informasiya təxribata yol verib. Belə ki, agentlik özünün İrəvan müxbirinə istinadən qondarma “Dağlıq Qarabağ Respublikası”nın “müstəqilliyinin” 23 illiyi ilə həsr etdiyi məqalədə Azərbaycanın ərazi bütövlüyü və tarixi təhrif olunub, “Dağlıq Qarabağın erkən orta əsrlərdə Ermənistanın tərkibində olması” qeyd olunub.

Təbii ki, tarixi saxtalaşdırmaqdan əlavə, bu, ölkəmizə qarşı növbəti təxribatdır. Özü də elə bir məqamda ki, Rusiya tərəfi vasitəçi dövlətlərdən biri kimi, məntiqlə ən əvvəl Serj Sərkisyanın böyük bir nümayəndə heyəti ilə “ildönüm”lə bağlı Dağlıq Qarabağa qanunsuz səfərini pisləyən bəyanat yaymalı idi. Amma əksi müşahidə olundu - separatçılığın təbliğini, “DQR”-in yersiz reklamını gördük.

***

**Azərbaycan Milli Məclisinin üzvü, tarix elmləri doktoru, professor Musa Qasımlı materialda yer alan bu iddiaların haqlı olaraq, tam əsassız və cəfəngiyyat olduğunu bildirib. M.Qasımlı deyib ki, tarixi mənbələr ermənilərin Cənubi Qafqaz regionunda gəlmə olduqlarını sübut edir. Onun sözlərinə görə, buna görə Qarabağ xanlığının Rusiyaya birləşdirilməsi ilə bağlı 1805-ci ildə imzalanmış Kürəkçay müqaviləsinin mətninə diqqət yetirmək yetər:** “Belə əsassız iddianı irəli sürənlər baxsınlar ki, Kürəkçay müqaviləsinin altında kimin imzası var? Müqavilədə ermənilər xatırlanırmı, adları varmı? Bunların heç biri yoxdur. Qarabağ Azərbaycan xanlığı olub, Azərbaycan xanlığı kimi Rusiya tərəfindən ilhaq edilib. Cənubi Qafqazda Ermənistan adlı bir dövlət olmayıb, ermənilər sistemli şəkildə Cənubi Qafqaza 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay sülh müqavilələrindən sonra köçürülməyə başlanılıblar. Bununla bağlı çar Rusiyası hökumətinin yüzlərlə sənədi var. Cənubi Qafqazda Ermənistan adlı dövlət 1918-ci ildə türk torpaqlarında yaradılıb, ilk adı Ararat Respublikası olub”.

**İndi guya tarixi həqiqətləri Kremldə bilmirlər? Bilirlər. Lakin Kremlə həqiqət yox, imperiya maraqlarını nəyin bahasına olur-olsun təmin eləmək lazımdır. Xüsusən də indi:** “Kiyevi iki həftəyə tuta bilərəm”, “Qazaxıstan adlı dövlət mövcud olmayıb” kimi yeni təhdidlərlə, nüvə başlıqları ilə dünyanı, qonşu dövlətləri hədələyən Kreml başçısının Azərbaycana münasibətdə şantaj siyasətinə qayıtması zərrəcə təəccüblü deyil.

Diqqətçəkici detal həm də belə bəyanatların Jirinovskinin Qazaxıstanı işğal eləmək çağırışlarından dərhal sonra səslənməsidir. Aydındır ki, Qazaxıstanı müstəqil dövlət saymayıb zəbt eləmək istəyən bir dövləti digər türkdilli postsovet ölkəsi olan Azərbaycanın suverenliyi və ərazi bütövlüyü də qayğılandırmaz. Artıq elə mərhələyə gəlib çatmışıq ki, Putin qəfildən “Dağlıq Qarabağ qədim erməni torpağı olub” desə, bu da təəccüblü olmayacaq.

Rusiyanın Prezident Administrasiyası isə bu qəbildən açıqlamaları nə qədər malalamağa çalışsa da, “ox artıq yaydan çıxıb”. Hədəf isə şəkk-şübhəsiz, Ukrayna ilə yanaşı Güney Qafqazın iki ölkəsi - Azərbaycan və Gürcüstan, həmçinin də Moldova, hətta NATO üzvü olan üç Baltikyanı ölkədir. Odur ki, Rusiyanın yeni çağırışları ilə rəsmi Bakının üz-üzə qaldığını əminliklə söyləmək mümkündür. Hər halda, Rusiyanın Qarabağ məsələsində şantaj siyasətinə qayıtdığı ortadadır. Azərbaycan indi Ukraynadakı prosesləri həssasiyyətlə izləməklə yanaşı, heç vaxt olmadığı qədər güclənən şimal təhlükəsini ciddiyə almalıdır. Hər iki “gözü” açıq olmalıdır.




# “Qarabağda müharibə hər an başlaya bilər”

## **Avropalı konfliktoloq:** “Türkiyə nizamlanma prosesinə cəlb olunmalıdır...”

**Qarabağ münaqişəsi zonasında “3 günlük müharibə” arxada qalsa da, vəziyyətin yenidən, bu dəfə daha geniş miqyasda nəzarətdən çıxma ehtimalı qalır. Ən azı iki səbəbdən - birincisi, konfliktin həllində hələ də heç bir ciddi irəliləyişin olmaması, ikincisi isə atəşkəs rejiminin beynəlxalq sülhməramlı qüvvələrin iştirakı olmadan qorunmasıdır.**



Məhz bu iki amili ciddiyə alan əksər Qərb təhlilçiləri və konfliktoloqlar ixtilafın həllinin ləngiməsini region və dünya üçün real təhlükə kimi görməkdədirlər. Onlardan biri də Brüsseldəki Avropa Siyasəti Mərkəzinin eksperti, tanınmış politoloq Amanda Poldur.

“Dağlıq Qarabağ zonasında genişmiqyaslı hərbi əməliyyatlar istisna deyil. Ona görə də olduqca vacibdir ki, beynəlxalq birlik bu problemi ikinci plana itələməsin. Bunu Rusiyanın öhdəsinə buraxmaq olmaz. Çünki Moskva münaqişəni sırf öz maraqları çərçivəsində çözmək istəyir”. Bu sözləri ekspert münaqişə zonasındakı son durumu şərh edərkən deyib.

Onun sözlərinə görə, Minsk Qrupunun hazırkı formatı Rusiyaya sərf edir. “Minsk Qrupunu nizamlama əldə eləməməkdə qınamaq olmaz. Ancaq istənilən halda bu format artıq köhnəlib. Onu təzələmək lazımdır. Proses genişlənməli və ona Türkiyə, İran cəlb olunmalıdır. Həmçinin Avropa Birliyi aktiv rol oynamalıdır. ABŞ da nizamlanmada öz rolunu artıraraq prosesə Moskvaya qarşılıq daha ciddi oyunçular cəlb eləməlidir”, - deyə politoloq vurğulayıb.

Ekspertin mövqeyi əslində Qarabağ məsələsinə yanaşmada elə Qərbin mövqeyini əks etdirir. Bu mövqe də ondan ibarətdir ki, problemin həllinə Türkiyə, hətta İranı qoşmaqla Rusiyanın vasitəçilik monopoliyasını, Ermənistanın ondan total asılılığını azaltmaq, konfliktin həllinə, nəhayət, impuls verməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi


Şahin Mustafayev


Heydər Əsədov

# YAP-çı deputat iki naziri "vurdu"

## Eldar İbrahimov: "İqtisadi İnkişaf və Kənd Təsərrüfatı nazirlikləri bu işləri tənzimləməlidir"

**Son günlər istehlak bazarında qiymət artımı aqrar məhsullarda daha aydın görünür. Kartof, soğan, qarpız, yemiş, pomidor, xiyar, göyərtilər, kələm, meyvələr bahalaşıb. Kartofu 90 qəpikdən ucuz tapmaq olmur. Pomidor və xiyar isə baha olması ilə yanaşı, həm də qıtlaşıb. Zirə pomidoru 2 manat, Gürcüstan sortu isə 1 manat 50 qəpikdən ucuz deyil. Kələmin 1 kiloqramı 1 manat, soğan 70-80 qəpiyə alıcı gözləyir.**

Kənd Təsərrüfatı Nazirliyi isə hər zaman açıqlamalarında məhsulların kifayət qədər, hətta lazım olandan da artıq olduğunu bildirir.

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov da bu fikirdədir:** "Həqiqətən məhsul boldur. Sadəcə, həmin məhsulu istehsal edən fermeri Bakının bazarlarına buraxmırlar. Fermer məhsulu gətirir ki, özü satsın. Amma möhtəkirlər qapını kəsib, məhsulu ucuz qiymətə özləri alıb satmaq istəyirlər. Bu möhtəkirlərin qarşısını almaq üçün bazar tənzimlənməlidir".

**Deputat həmişə olduğu kimi, Naxçıvandakı durumu misal gətirib.** "Naxçıvanda niyə bazar bahalaşmır? Çünki nəzarət var. İqtisadi İnkişaf Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi bu işləri tənzimləməlidir. Kim deyirsə ki, Rusiya bazarına yol açılıb deyə məhsul yoxdur, yalançıdır.

Əlbəttə, Rusiyada Azərbaycan məhsullarına tələbatın artması özü-özlüyündə yaxşı haldır. Əlaqələrin genişləndirilməsi, daimi olması və bunun müqavilələrlə həyata keçirilməsinin tam tərəfdarıyam. Amma bazardakı bahalaşmada Rusiyanı səbəb göstərmək sadəcə bəhanədir", - deyə komitə sədri vurğulayıb.

Xatırladaq ki, kənd təsərrüfatı naziri Heydər Əsədov, iqtisadi inkişaf naziri isə Şahin Mustafayevdir.

Kənd Təsərrüfatı Nazirliyi də qiymət artımı ilə bağlı açıqlama verib.


Eldar İbrahimov

Nazirlikdən verilən məlumatda deyilir ki, Rusiya bazarına ixracın artırılmasına görə bəzi kənd təsərrüfatı məhsullarının qiymət artımı ilə bağlı araşdırma aparılıb.

**Nazirlik son günlər ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının Rusiya bazarlarına ixrac həcminin çoxalmasına görə daxili bazarda kəskin qiymət artımının baş verməsi ilə bağlı mətbuatda verilən məlumatlara əsasən araşdırma aparıb:** "Mövsümün əvvəlində əsas meyvə-tərəvəz məhsullarının daxili bazardakı satış qiymətləri ötən illə müqayisədə aşağı olub. Məsələn, ötən ilin iyul ayına nisbətən cari ilin iyul ayında kələmin qiyməti 25, soğanın qiyməti 21, sarımsağın qiyməti 15, xiyarın qiyməti 13, almanın qiyməti 21, çiyələyin qiyməti 12, alçanın qiyməti isə 10 faiz aşağı idi. Ümumilikdə isə meyvə-tərəvəzlər üzrə istehsalçı qiymət indeksi, yəni fermerlərin sahədən satış qiymətləri 4-5 faiz aşağı olub".

**Nazirlik iddia edir ki, mövsümün əvvəlində formalaşmış qiymət fermerlər üçün əlverişsiz olub. Buna görə də qiymətlərin fermerlər üçün qaldırılmasına ehtiyac yaranıb:**

"Avqust ayının əvvəlindən başlayaraq Rusiya bazarına ixrac imkanlarının genişlənməsi təbii olaraq yerli istehsalçılar üçün əlverişli bazar şərtlərinin yaranmasını şərtləndirən müsbət faktor kimi çıxış etdi. Bunun da nəticəsində daxili bazarda qiymət şərtləri həm də fermerlərin mənafeyinə uyğun yeni tarazlıq mərhələsinə daxil oldu. Bununla belə, burada üç məqama da diqqət yetirmək lazımdır.

Birincisi, Rusiya bazarına ixrac imkanlarının genişlənməsi qiymətlərə daha çox psixoloji təsir kimi çıxış edirdi. Lakin əslində cari ilin ötən dövrü ərzində Azərbaycanda istehsal edilən meyvə, tərəvəz və bostan məhsullarının ixrac edilən hissəsi müxtəlif məhsullar üzrə ümumilikdə təqribən 7-10 faizi təşkil edib, yəni ötən ilə nisbətən artım 20,5 faiz olub.

İkincisi, Kənd Təsərrüfatı Nazirliyinin monitorinqləri göstərir ki, Rusiya bazarına məhsul ixracının artırılmasından irəli gələn qiymətlərə psixoloji təsir faktoru avqust ayının 8-9-dan başlasa da, bu faktor avqust ayının 28-29-dan öz təsirini itirməyə başladı. Yəni artıq avqust ayının axırından etibarən qiymətlər yeni tarazlıq nöqtəsində sabitləşməyə başladı. Bu il yalnız qarpız, yemiş, lobya və pomidorun qiyməti yüksək olub.

Bir sözlə, Rusiya bazarına ixracın təsiri ilə cari ilin avqust ayında meyvə, tərəvəz və bostan məhsullarının qiymətlərində baş verən dəyişiklik mövsümün əvvəlində istehsalçılar üçün əlverişsiz olan qiymət şərtlərinin əlverişli vəziyyətə gəlməsini şərtləndirib. Eyni zamanda qiymətlərin yeni tarazlıq səviyyəsi istehlakçıların da mənafeyinə toxunmadı, çünki bu, ötən ilin müvafiq dövrü ilə eyni səviyyədədir".

# Gəncənin icra başçısı mollalara tapşırıq verdi

## Deputat isə şadlıq evlərinin rəhbərlərini soyğunçuluqda suçladı



**"Mən də Azərbaycanda yas mərasimlərində israfçılığa qarşıyam, illərdir bu haqda yazır və fikrimi bildirirəm. Yaslarda israfçılığa qarşı tədbirlər ilk olaraq Naxçıvanda tətbiq edildi və yeni qayda insanların rəğbətini qazandı. İndi Naxçıvanda yaslarda ancaq çay və qənd verilir, ən doğrusu da elə budur.**

Çünki yaxınını itirən şəxs belə ağır günündə mərasimə gələcək yüzlərlə insanın yeməyini, içməyini necə təmin edəcəyi və buna xərcləməli olacaq maliyyəni haradan tapacağı haqda fikirləşir. Yaslarımız israfçılıq məkanına çevrilib ki, bu dinimizə də ziddir. Bu baxımdan dövlətimizin, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının bu sahədə qayda-qanun yaratmaq səylərini dəstəkləyirəm".


Elmar Vəliyev


Adil Əliyev

**Bu sözləri özünün facebook hesabında deputat Adil Əliyev yas mərasimlərində israfçılığın qarşısının alınması üçün atılan tədbirlərə münasibət bildirərkən yazıb. O, toyları da israfçılıq mənbəyi adlandırıb:** "Bununla paralel olaraq digər israfçılıq mənbəyinə çevrilən toylarımıza da əncam çəkməyin vaxtıdır. Təəssüf ki, yaslarımız kimi toylarımız da bəhsə-bəhs yarışına çevrilib. Toylarda ancaq imkanlı şəxslər və ailələr bahalı menyular sifariş etsəydilər, bəlkə də problem olmazdı. Deyərdik ki, özləri bilər, pulları çoxdur, nə istəyirlər onu da sifariş edə bilərlər. Halbuki həddən artıq dəbdəbə də cəmiyyətdə xoş qarşılanmır. Problem ondadır ki, imkanlı şəxslərin hesabına israfçılığa öyrəşən və bunun müqabilində böyük pullar qazanan yas və toy şəbəkəsi kasıb və orta təbəqəni də müflis edərək israfçılığa sürükləyir. Ona görə də bizə elə qaydalar və tənzimləmə mexanizmi lazımdır ki, kasıb və orta təbəqə imkanlı şəxslərin girovuna çevrilməsin. İmkanlı şəxslər isə bu tənzimləmə mexanizmini əllərində rəhbər tutaraq kasıb və orta təbəqəni öz varidatları ilə qıcıqlandırmasınlar.

Şadlıq sarayları istisnasız bütün toy sahiblərinə öz şərtlərini diktə edir, nəticədə vətəndaş bahalı menyülər sifariş etmək məcburiyyətində qalır. Adətən razılaşma belə olur ki, toy sahibi mərasim bitdikdən sonra məclisdə yığılan pulu şadlıq sarayının rəhbərliyinə çatdırmalıdır. Bəzən elə hallar olur ki, ev sahibi toyda gərəkən miqdarda pul toplaya bilmir. Şadlıq sarayının rəhbərliyinin isə tələb etdiyi pulun tamamını toplamayınca bəylə gəlini girov götürdükləri barədə xəbərlərə də rast gəlirik. Toylarda masa üzərinə qoyulan yeməklərin həcmi və çeşidi o qədər çox olur ki, onun 80 faizi istifadə olunmur və sonra şadlıq saraylarının həmin istifadəsiz ərzaqdan necə istifadə etdiyi bilinmir. Toya gedirsən, musiqinin səsindən qulaqların tutulur, qohum və dostla kəlmə də kəsə bilmirsən. Ona görə də düşünürəm ki, toylarda da qayda-qanun yaratmağın vaxtı çatıb".

**A.Əliyev hesab edir ki, əgər bunu inzibati yollarla həll etmək mümkün deyilsə, hamı bir-birindən çəkinirsə, vətəndaş "yaxşı deyil" deyib başqalarıyla yarışmaq məcburiyyətində qalırsa, deməli, məsələni qanun səviyyəsində tənzimləmək lazımdır:** "Bu, vətəndaşlarımızı həm israfçılıqdan, həm də borclanmadan qurtarar. Qanun layihəsində yas və toy mərasimlərinin təşkili qaydalarının konkret tənzimləmə mexanizmləri göstərilməlidir".

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev də təmtəraqlı yas mərasimləri ilə bağlı tapşırıqlar verib.

İcra başçısı deyib ki, yas mərasimləri İslam dininin qaydalarına və o cümlədən xalqın formalaşmış adətlərinə uyğun keçirilməlidir. İcra başçısı həmçinin dəfn xərclərinin də ciddi nəzarətə götürülməsi ilə bağlı tapşırıqlar verib. Bunun üçün din xadimləri, ziyalılar, xüsusilə mollalar əhali arasında təbliğat aparmalı, yas yerlərində dini qaydalara uyğun ehsan süfrələrinin açılmasını təmin etməlidirlər. E.Vəliyev şəhər axunduna, eləcə də din xadimlərinə belə hallara qarşı mübarizə aparılması barədə tapşırıqlar verib.

❑ **E.SEYİDAĞA**

# "Azərbaycanda "Ebola" virusu yoxdur"

"Azərbaycanda "Ebola" virusunun yayılması təhlükəsi yoxdur. Sərhəddə həyata keçirilən təhlükəsizlik tədbirləri yarana biləcək təhlükənin qarşısını almaqdan ötrüdür. Nəzarətin gücləndirilməsi "Ebola" virusu xəstəliyinə qarşı profilaktik və əks-epidemik tədbirlərin gücləndirilməsi, eləcə də bu xəstəliyin ölkəmizə keçməsinin qarşısının alınması məqsədi daşıyır. Nəzarətin gücləndirilməsinin virusun Azərbaycanda yayılması ilə əlaqəsi yoxdur". Bunu modern.az-a açıqlamasında Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli bildirib.

Qeyd edək ki, Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən, Afrikanın qərbində yayılan "Ebola" virusunun qurbanlarının sayı 1069 nəfərə çatıb. Son açıqlamalara əsasən, ölümcül virusa yoluxanların sayı 1975 nəfər təşkil edir.

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014

# Sərdar Cəlaloğlunu kafir sözünə görə peşman etdilər



**ADP sədri Sərdar Cəlaloğlu 1937.az saytına müsahibəsində dahi alim və şair Məhəmməd Füzulinin kafir olduğunu bildirib. S.Cəlaloğlu müsahibəsində Füzulinin fikirlərinin bizi düzgün tərbiyə etmədiyini və onun içindəki zəhərləri neçə yüz illərdir ki içdiyimizi bildirib:**

“”Mətləül-etiqad" əsərində Füzuli deyir, guya Peyğəmbər deyib ki, sirr elmini öyrənin. Mən də sirr elmini öyrəndim - əl-kimya, astrologiya, terekuriya... Və bunların əsasında da şərh eləməyə başladım. Mən o əsərdə görürəm ki, Füzuli kafir düşüncəsinə gəlib çıxır. Füzuli kafirdir".

S.Cəlaloğlunun bu fikirlərinə bir neçə füzulişünasın münasibətini öyrəndik. ADP sədrinin fikirləri füzulişünasların qəzəbinə səbəb oldu.

**Füzulişünas alim Firudin Qurbansoy S.Cəlaloğlunun dindən və ədəbiyyatdan xəbərsiz olduğunu dedi:** “Füzulidən xəbəri olan heç bir mömin ona kafir deməz. Görünür, super siyasətçi olan Sərdar Cəlaloğlu həm də super mömindir. Füzuli İmam Hüseynin məqbərəsində xəttat işləyib. Ondan böyük Allaha yaxın adam olmayıb. Sərdar Cəlaloğlu Füzuli yaradıcılığını başa düşə bilməz. Sərdar Cəlaloğlu gedib siyasəti ilə məşğul olsun, ədəbiyyata niyə girir?! Mən Füzuli yaradıcılığının incəliklərinə bələdəm. Füzuli Allaha yaxın adam olub. Füzuli haqqında güldən ağır söz demək olmaz. Hər kəs öz işi ilə məşğul olsa yaxşıdır. Siyasətçi ədəbiyyata girməməlidir. Ədəbiyyatın elə sirləri var ki, o hamıya açılmır. Hər elmin elə sirləri var ki, onu yalnız o elmin mütəxəssisi bilir. Sərdar Cəlaloğlu öz ixtisasını yaxşı bilsə, başqa sahələrə girişəndə də keyfiyyətli söz danışar. Əgər sən Füzuliyə kafir deyirsənsə, deməli, sənin nə dindən xəbərin var, nə də ki, ədəbiyyatdan”.



**Firudin Qurbansoy:** “Əgər Füzuliyə kafir deyirsənsə, sənin nə dindən xəbərin var, nə də ki, ədəbiyyatdan”



**Rəsul Mirhəşimli:** “Məhəmməd Füzuliyə kafir demək insanın psixoloji problemlərinin olduğunu göstərir”



**Tanınmış publisist Rəsul Mirhəşimli bildirdi ki, Füzuliyə kafir demək adamın ağlında problem olmağını göstərir:** “Məhəmməd Füzuliyə kafir demək insanın psixoloji problemlərinin olduğunu göstərir. Sərdar Cəlaloğlu siyasi proseslərdə uğur qazana bilməyibsə, çox yaxşı olar ki, getsin öz sahəsi-tibb ekspertliyi ilə məşğul olsun. Bəlkə o sahədə uğur qazanar. Çünki insanlar bilmədiyi mövzuları müzakirə edəndə özünü cəmiyyətə güldürür. Məhəmməd Füzuli deyib ki, mən ona görə Füzuli təxəllüsünü seçdim ki, əgər hər hansı bir qəbahət etsəm, hesab eləsinlər ki, bu füzuldur, yəni boşboğazdır. O, adını daşıdığı Məhəmməd Peyğəmbərin adına xələl gəlməsin deyə Füzuli təxəllüsünü götürdü. Bir də qeyd edib ki, gələcəkdə kimsə mənim təxəllüsümü özünə götürmək istəsə bunu özünə rəva bilməsin. Çünki füzul çox danışan deməkdir. Bu da Füzulinin Peyğəmbərə verdiyi qiymət. İkincisi isə Məhəmməd Füzuli yaradıcılığından bir nümunə bəs edir ki, Sərdar Cəlaloğlunun bilmədiyi mövzuya girişməyi öz biliklərindən kənar düşüncələri ilə yanlış fikir yaratdığı göz qabağındadır. Füzuliyə kafir demək adamın ağlında problem olmağını göstərir. Bundan başqa nə demək olar. Məhəmməd Füzuli haqqında elementar təsəvvürü olmayan bir adam getsin öz işi ilə məşğul olsun və cəmiyyəti özünə güldürməsin”.

**Fəxrəddin Baxşəliyev Füzuliyə kafir deyilməsinin çox gülünc bir ifadə olduğunu bildirdi:** “Füzuli Sərdar Cəlaloğlunun dediyi kimi, nə kafir deyil, nə də ki dindarların dediyi mənada mömin deyil. Füzuli, sadəcə olaraq, imam əhlinə aşiqdir. Bir vaxtlar Füzulini ateist, allahsız eləmək üstündə yarış gedirdi. İndi də onu molla eləmək üstündə yarış gedir. Hər iki fikir yanlışdır. Sərdar Cəlaloğlu əvvəlcə bilsin ki, iman nədir, ondan sonra Füzuliyə kafir desin. Amma bir mənada da haqlıdır ki, bu mollalar Füzuliyə mömin deməklə ağını çıxarıblar. Füzuli mömin olsaydı, ”Könül, səccadəyə basma ayaq, təsbihə əl vurma. Namaz əhlinə uyma, onlar ilə durma, oturma!" misralarını deməzdi. Füzuli imanla küfrün arasında olan eşq məsələsindədir. Bəli, Füzuli dindar deyildi. Amma kafir də deyildi. Dindarlıq başqa, aşiqlik başqa. Füzulinin olduğu mərhələ dindarlıqdan çox-çox uca bir mərhələ idi. Ancaq Füzuliyə kafir deyilməsi çox gülünc bir ifadədir. Sərdar Cəlaloğlunun Füzuliyə kafir deməyi mollaların Füzuliyə dindar deməyinə bərabərdir. İkisi də eyni dərəcədə yanlışdır".

**Günel MANAFLI**

# Sivilizasiyaların süpürləşməsi



**Samir SARI**

**Zəmanəmizin böyük mütəfəkkiri Semyuel Hantinqton 20-25 il əvvəl “Sivilizasiyaların toqquşması” əsərini yazanda bilmirdi və bilə bilməzdi ki, Yer üzündə Məhəmmədi adlı bir kənd var və vaxt gələcək, onun iki sakini məhz onun nəzəriyyəsi üzrə bıçaqlaşacaqlar.**

Yəqin ki, heç Məhəmmədi kəndində də Semyuel Hantinqtonu tanımırlar *(bir neçə nəfər istisna ola bilər)* və onun elə bir əsər yazdığından xəbərsizdirlər. Xəbərdar olsalar belə, bu çıxası qanın damarda qalmasına səbəb olmayacaqdı.

Amma işə baxın, ser Hantinqton illər öncə insanların nə üstə dalaşıb toqquşacaqlarını bilirmiş.

Əlbəttə, bizim ölkədə sivilizasiyaların toqquşması Suriyadakı, İraqdakı, Qəzzadakı qədər qanlı-qadalı, şiddətli deyil. Bildiyiniz kimi, orda mədəniyyətlər raketlərlə toqquşur və qan su yerinə axır. İŞİD-in əl keçirilmiş əcnəbi jurnalistlərdən Amerika əleyhinə ifadə aldıqdan sonra başlarını kəsməsi də əslində Hantinqtonun dediyi məsələdir.

Təcili şəkildə qayıdaq öz ölkəmizə, bizim İraqda, Suriyada nə işimiz var ki, İŞİD də tutub başımızı kəsə, mədəniyyətlərin toqquşması nəzəriyyəsinə qurban gedək. Odur, ildə iki dəfə Əfqanıstandan vurub Suriyadan çıxan həmkarımız Səbuhi Məmmədli də İŞİD olan zonalara üzükmür, çünki onlarla zarafatlaşmağın axırının videosüjetlə bitdiyini bilir.

Xüləs, Məhəmmədi kəndində baş verən sivilizasiya toqquşması xoşbəxtlikdən insan tələfatı ilə nəticələnməyib - eləcə, bir nəfər yaralanıb, bir nəfər tutulub.

Düzdür, hüquq-mühafizə orqanları məsələyə Hantinqtonu qatmırlar və hesab edirlər ki, bu, məişət zəminində baş verən və kəsici-deşici alətin tətbiq olunduğu adi münaqişədir, amma oxumuş adamlar bilirlər ki, xeyr, bıçağa əl atılarkən “Allahu əkbər” söhbəti olmasa da, hər şey siyasi-fəlsəfi nəzəriyyənin kriteriyaları uyğundur.

Məsələn, baxaq görək, gənclər nə üstdə dalaşıblar. İlkin informasiyadan bəlli olur ki, zərərçəkənlə zərəryetirənin mübahisəsi birincinin əyninə gecə vaxtı şortik geyməsi və bu halda it gəzdirməsinə görə olub. İkinci içkili halda birinciyə irad bildirib və bıçaqlama hadisəsi qaçılmaz xarakter alıb.

Nəzərə alaq ki, “şortik geyinmək” və “it gəzdirmək” Avropa mədəniyyətinin ünsürüdür. Bu xoşagəlməz mənzərəni qəbul etməmək və ona “camaatın anası-bayıssı var” deyə irad bildirmək isə Şərq, Asiya mədəniyyətinin tərkib hissəsidir. Al, bu da toqquşma.

İndi hər şeyə mız qoyan dairələr deyə bilərlər ki, əslinə qalsa, spirtli içki içmək də Avropa mədəniyyətinin ünsürüdür, əlibıçaqlı vətəndaş belə mentalitet qədri bilən idisə, ayıq olmalıydı. Orası elədir, amma bizdə bu kimi Şərq-Qərb, Avropa-Asiya sintezləri çoxdan qəbul olunub, işimizə gələndə avropalı, kefimizə düşəndə asiyalı ola bilirik.

Sizə elə-belə gəlməsin, son illər şortiklə məhəlləyə çıxmaq üstündə yüzlərlə oğlanın qabağı kəsilib və onların bir çoxu ağızın cırılması, burunun əzilməsi, sifətin dağılması diaqnozu ilə müalicə müəssisələrinə yerləşdirilib. *(Belə hadisələr təbii ki, tişörtün və şortun cırılması ilə müşayiət olunur)*.

İndilikdə it gəzdirmək üstündə döyülən yoxdur. Çünki itə sevgi bizim mədəniyyətdə də var. Regionda ən çox it boğuşduran camaat bizik. Sadəcə, iti şortiklə gəzdirmək və boğuşdurmaq olmaz.

Kişinin dizi görünməməlidir. Şəriətdə “qadının topuğu görünməməlidir” kimi qadağa var, bunu bilirik, amma kişinin dirsəyinin və dizinin görünməməli olduğunu sırf cahillik üzündən çoxları bilmir. Belə olanda da çəkirlər bıçağı və dizi görünmüş oğlan gedib lüt şəkildə düşür ya mürdəşirin əlinə, ya da naməhrəm həkimlərin əməliyyat masasına.

Bax, sivilizasiyaların toqquşması budur. Bizdə hələlik sivilizasiyaların itələşməsi, dürtmələşməsi, arada süpürləşməsi prosesi gedir, özbaşına qoysaq və ağıllı olmasaq, onların boğuşmasının şahidi də ola bilərik.

Ortada sivilizasiyaların qan davası varsa, ondan sonra Hantinqton əlli dənə “Sivilizasiyaların barışması” əsəri yazsa da, xeyri yoxdur.

# Qrant skandalı, "GONGO"idlər iddiası və ona cavab...

## Hakimiyyətyönlü QHT-lər xaricdən daha böyük qrantlar alır?

**Xarici fondlardan böyük məbləğdə qrantlar almaqda və Azərbaycana qarşı fəaliyyətdə suçlanan QHT təmsilçilərinin bir neçəsi artıq həbsxanadadır. Lakin görünən budur ki, proses səngiməyib, hələ də davam edir və yeni həbslər olacaq.**

İqtidar texnoloqlarının və bir sıra mətbu quruluşların yaratdığı atmosfer də belə bir təəssüratı ortaya çıxarır ki, xarici donor təşkilatlar nəyə görəsə ancaq müxalifyönümlü QHT-lərə vəsait verir.

Bəs əslində vəziyyət necədir? Doğrudanmı xaricdən milyonlarla vəsaiti almaq şansı ancaq bu hakimiyyətin əleyhinə olanlara məxsusdur?

**Araşdırmaçı jurnalist Aynur İmranova** “"GONGO"idlər" başlıqlı araşdırma məqalə ilə bu sahədəki mənzərəni təsvir etməyə çalışıb. *(GONGO-Government Organized Non-Governmental Organization hökumətyanı təşkilat anlamına gəlir)*. Yazıda iddia olunur ki, hakimiyyət müstəqil QHT-lərlə mübarizə aparmaq üçün onların yaradılması və mövcud təşkilatların GONGO-ya çevrilməsi prosesinə başlayıb. Müəllif araşdırmasında həmin təşkilatlardan bir çoxunun adları, kimin himayəsində olması, ildə nə qədər vəsait alması barədə faktlar toplayıb.

Jurnalist öncə bu kateqoriyaya daxil olan QHT-lərin adlarını açıqlayıb. Onların bəzilərini təkrarlayaq:

Azərbaycan Hüquqşünaslar Konfederasiyası", İdarə Heyətinin sədri, millət vəkili Əli Hüseynov;

- "Konstitusiya" Araşdırmalar Fondu, Əliməmməd Nuriyev;
- AVCİYA-Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası, sədri Elxan Süleymanov;
- Avrasiya Beynəlxalq Mətbuat Fondu, rəhbəri Ümid Rəhimov;
- Milli QHT Forumu, sədri Rauf Zeyni;
- Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA) - Şahin Seyidzadə;
- «Ümidli Gələcək» Gənclər Təşkilatı, sədri Fuad Muradov;
- "Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası" təşkilatı AGAT Gülsel Səfərova;
- Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, sədri Sahib Məmmədov;
- Beynəlxalq münasibətlərin araşdırılması mərkəzi, sədri Rufiz Qonaqov;
- Azərbaycan İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi, rəhbəri Sabit Bağırov;
- Sosial Huquqların Monitorinq Qrupu, rəhbəri Azad İsgəndərli;
- "Lider qadınlar" ictimai birliyi, sədri, millət vəkili Məlahət İbrahimqızı və sair...

Diqqəti çəkən məqam isə onların aldıqları məbləğlərdir. Yazıdakı faktların bəzilərinə diqqət:

Azərbaycan Gənclər İttifaqı - toplam 225.000 $, 550.000 Norveç kronu, 21.800 AZN;

- Azərbaycan Hüquqşünaslar Konfederasiyası toplam 345.850$ (Bildiyiniz kimi, USAİD bu təşkilata verdiyi 1.5 milyon dollarlıq layihəni göstərilən təzyiqlər nəticəsində dayandırdı. Maraqlı nüans odur ki, konfederasiya özü də Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasına 274.770$ layihə maliyyələşdirib. Azərbaycan Hüquqşünaslar Konfederasiyasının adlığı layihələrin biri isə Əliməmməd Nuriyevin rəhbərlik etdiyi "Konstitusiya" Araşdırmalar Fondundan 180.850$ olub);
- Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası toplam 308.736$;
- "Ümidli gələcək" gənclər təşkilatı toplam 100.330 AZN + 7000$;
- "Gələcəyə Körpü" Gənclər İctimai Birliyi 59.000$+240.934 avro+12.142 AZN...

Yazı "Azadlıq" qəzetində dərc ediləndən və sosial şəbəkədə geniş rezonans doğuran zaman buna kəskin etiraz edənlərdən biri də **Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov** olub. "Yeni Müsavat"a açıqlamasında S.Məmmədov yazıda təmsil etdiyi qurum barədə yer alan informasiyanın qeyri-dəqiq olduğunu dedi. Müsahibimiz öncə bildirdi ki, onların təşkilatı heç zaman 275 min dollar qrant almayıb: “"Yeni Müsavat" qəzeti bu yaxınlarda Azərbaycan Hüquqlar Konsorsiumu layihəsinin bağlanması barədə yazı vermişdi. Azərbaycan Hüquqşünaslar Konfederasiyası ilə bir müsabiqə əsasında 10 faiz layihə payı ilə iştirak edirdik. 4 il müddətinə 156 min dollarlıq qrantdan söhbət gedirdi. O layihənin taleyi də məlumdur. O layihə başlayandan 8 ay sonra bizə maliyyə verməyə başladılar. Sonra 5-6 ay işləyəndən sonra o layihə dayandırıldı. Təəssüf ki, Ədliyyə Nazirliyinin saytında bu məlumatlar yenilənmir. Azərbaycan Hüquqşünaslar Konfederasiyası layihənin dayandırılması barədə Ədliyyə Nazirliyinə məlumat versə də, nəzərə alınmayıb. Bizim təşkilatla bağlı daha bir rəqəm səslənir: 71 min. Halbuki bu, krondur. Norveç pul vahidi. Maraqlı tərəf bunu yazmır ki, krondur. Halbuki kronun dollara nisbətini yazsa mənzərə aydınlaşar. Əslində biz kiçik maliyyələrlə işləyən təşkilatıq. Bu, o demək deyil ki, biz layihə yazmağı bacarmırıq. Sadəcə, hər donora müraciət etmirik".

**Müsahibimizin sözlərinə görə, belə təşkilatlar dünyanın bir çox ölkələrində var - Qərbdə də, avtoritar, demokratik, eləcə də bizim kimi keçid dövrünü yaşayanlarda da:** "Onlar ABŞ kimi ölkələrdən birbaşa subsidiyalar alırlar. İndi bizdə də subsidiyalar alan qeyri-hökumət təşkilatları var ki, onlar yaradıcılıq qurumlarıdır. Amma dövlət büdcəsindən qrant alan təşkilatlara heç yerdə GONGO deyilmir. Məsələn, İREX təşkilatı müsabiqə yolu ilə USAİD-dən layihələr alır. Buna GONGO demək olmaz. Amma məsələn, Milli Demokratiya İnstitutu, Respublikaçılar İnstitutu birbaşa subsidiyalar alır ki, bu, məhz GONGO-dur. Eləcə də bizdə kimsə dövlət Dəstəyi Şurasından, Gənclər Fondundan, hansısa nazirlikdən layihə alırsa, bu, o demək deyil ki, GONGO-dur".

**S.Məmmədov təmsil etdiyi qurumun yarandığı vaxtdan hökumətlə dialoq apardığını, eyni zamanda hökumətlə məhkəmələr apardıqlarını da bildirdi:** "Əgər hökumətlə danışmaq, bununla da həbs edilmiş hansısa kolleqanın, hansısa media orqanının problemini həll etmək cəhdini kimsə GONGO adlandırırsa, mən deyirəm ki, bunu savadsızlıqdan, ya da qərəzdən deyir".

❑ **Sevinc TELMANQIZI**

**"Avropa Birliyi ilə münasibətləri hansı yöndə inkişaf etdirmək barədə qərarı Azərbaycan verməlidir". APA-nın xəbərinə görə, bunu jurnalistlərin sualına cavabında Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard deyib.**



# İki oğlu İŞİD-ə qoşulan atadan tükürpədici açıqlamalar

## "Babək ölüb, arvadı döyüşdə ölən dostunun yoldaşı ilə birlikdə qalır, Emin isə yaralıdır..."

Suriya və İraqda İŞİD-ə qoşulan azərbaycanlılar haqda heyrətamiz xəbərlər yayılır. Terror qruplaşmasında nə qədər azərbaycanlı iştirak etdiyi bilinməsə də, onların sayı getdikcə artır. Hətta yeni qoşulanlara, ailəsini və övladını götürüb gedənlərə də rast gəlinir.

Bugünlərdə İsmayıllı rayonundan Suriyaya Əsəd rejiminə qarşı döyüşməyə gedən vəhhabi ailələr barədə sensasion məlumatlar yayılıb. Jurnalist Elçin İsmayıllı facebook səhifəsində yazıb ki, onlardan biri Azərbaycanda güləş üzrə çempion Rəşad Baxşəliyevdir. Gənc güləşçimiz ailəsini götürüb Suriyaya gedib. Onunla birlikdə başqa bir nəfər də var.

Daha sonra İsmayıllıdan gedənlərdən ikisinin öldürüldüyü xəbəri yayıldı. Artıq ölənlərin barəsində yaxınlarına məlumat da verilib. Rayonda hər kəs bu hadisədən danışır. Amma öldürülənlərin kimliyi açıqlanmır.

"Oğlumdan heç bir xəbərim yoxdur. Burda ürəyim partlayır".

**Bunu isə axar.az-a İsmayıllı rayonundan Suriyaya azyaşlı uşağı və həyat yoldaşı ilə birlikdə gedən güləşçimiz Rəşad Baxşəliyevin anası Mirvari Baxşəliyeva deyib. Onun öldü-qaldısından bir xəbər-ətər yoxdur. Çarəsiz vəziyyətdə qalan M.Baxşəliyeva nə edəcəyini bilmədiyini söyləyib:** "Niyə heç kəs məni başa düşmək istəmir? Mənim balam gedib, canımın parası gedib. Axı ürəyim ağrıyır, ürəyim partlayır burda! Xahiş edirəm, unudun bu məsələni. Danışmaq istəmirəm". Baxşəliyev rayonun Xankəndi məktəbində bədən tərbiyəsi müəllimi işləyirdi. Bu günə kimi də onlardan aydın bir məlumat gəlməyib. Ancaq İŞİD-ə qoşulan tək azərbaycanlı ailələri İsmayıllıdan gedənlər deyil.



Bugünlərdə Suriyanın əl-Rakka şəhərində Əsəd qüvvələrinə qarşı döyüşlərdə azərbaycanlı Babək Azəri adlı vəhhabi həlak olub. Qardaşı Emin Azəri isə kürd peşmərgələrlə toqquşmada ayağından yaralanıb. 21 yaşlı Babək, onun həyat yoldaşı Kristina *(Xədicə)* və qardaşı 22 yaşlı Emin ötən ilin noyabrında Rusiyanın Noyabrsk şəhərindən dini təhsil almaq üçün Türkiyəyə, oradan isə Suriyaya gediblər.

Babək dünyasını dəyişəndən sonra Emin onun həyat yoldaşı ilə birlikdə Suriyada qalıb, döyüşü davam etdirməyi qərarlaşdırıblar. Avrasiya.net saytı qardaşların Noyabrskda yaşayan atasından müsahibə alıb.

**Azərilərin atası deyib ki, Emin hələ müalicə alır, yarası sağalmaq üzrədir:** "Babəkin yoldaşı da hələ ki müalicə alır. Babəkin yadigarı olmadı. Körpəni bətnində saxlaya bilmədi. Görünür, şərait pis olub. Gəlmək istəmirlər, müxtəlif təkliflər edirəm, faydası yoxdur. Mən belə əqidə görməmişəm".

**Ata ölən oğlunun arvadının Suriyada tək yaşamadığını, oğlunun dostu Müslümün arvadı ilə qaldığını bildirib:**

"Müslüm rus idi. Noyabrsk şəhərindəndi, İslam dinini qəbul etmişdi, o da döyüşdə ölüb. Əsl adı Vyaçeslav idi. 21 yaşı vardı. Arvadı çeçen qızıdır. Adı Fatimədir".

**İki oğlundan ümidini üzən ata onların necə getdiyini açıqlayıb:** "Müslüm də Babəkin ailəsi ilə birgə getmişdi Türkiyəyə. Onlar möhkəm dost idilər. Babəkdən bir ay sonra o da öldü. O da ailəsi ilə getmişdi. Bizim şəhərdən 21 nəfər Suriyaya gedib. Hələ ki ikisi ölüb. Babək 10 yaşından, Emin ondan bir az sonra dini təhsil almağa başladılar. Bəzən mübahisələrimiz düşürdü. Çox vaxt bizim mollaların hərəkətlərini misal gətirirdilər, fırıldaqlarını açırdılar. Onları bu yola yönəldən artıq işini görmüşdü. Onlar bizdən gizlədirdilər, açıq danışmırdılar. Həm də onlar başqa şəhərdə yaşayırdılar, biz nə bilək. Bir cavan övladını itirmiş, ikincini də itirmiş kimiyəm. Heç bir ataya bunu arzulamıram, hətta düşmənimə də".

**Vəhhabilərin atası heç vaxt Suriyada döyüşmək istəmədiyini deyib:** "Mən müsəlman qanını axıdanlara qarşıyam. Nə fərqi, şiədir, sünnüdür, ələvidir və ya başqasıdır. Axır ki, Allaha itaət edir. Bütün bu hadisələr xristian Qərbin qurmalarıdır. Əfsus ki, İslam dünyasının birliyi yoxdur".

❑ **Emil SALAMOĞLU**

# Pərviz Həşimliyə hələ də ailəsi ilə açıq görüş verilmir

**Vəkil Bəhruz Bayramov Bakı İstintaq Təcridxanasında "Bizim Yol" qəzetinin əməkdaşı, moderator.az saytının redaktoru, tanınmış jurnalist Pərviz Həşimli ilə görüşüb. Bu barədə "Yeni Müsavat"a açıqlamasında P.Həşimlinin həyat yoldaşı İlahə Rüstəmova məlumat verdi. Müsahibimiz öncə xatırlatdı ki, sentyabrın 17-də jurnalistin həbsinin 1 ili tamam olur: "Amma bu 1 il müddətində ona bir dəfə də olsun nə ata-anası, nə də bizimlə açıq görüş verilməyib. Təcridxana rəhbərliyi deyir ki, guya bu, daxili nizam qaydaları ilə bağlıdır".**

Müsahibimiz dedi ki, artıq vəkili P.Həşimlinin ailə üzvləri ilə açıq görüş verilməsi ilə bağlı ədliyyə naziri Fikrət Məmmədova müraciət edib. Onun sözlərinə görə, jurnalistin atası Türkiyədə ürək əməliyyatı keçirib: "Pərviz həm də buna görə atasından çox narahatdır. Xahiş edir ki, onun qanunda göstərilən hüquqlarının bərpa olunmasına dəstək verilsin".

## İlahə Rüstəmova: "Ailəsi Pərvizlə açıq görüş istəyir"



**İ.Rüstəmovanın sözlərinə görə, keçən həftə ailə üzvləri P.Həşimli ilə görüşə getsələr də, onlara görüş verilməyib:** "Bizə deyildi ki, guya şüşəarxası görüş otaqları təmirə dayanıb. Xahiş etdilər ki, bunu nəzərə alıb, bizə açıq görüşməyə icazə versinlər".

Xatırladaq ki, Pərviz Həşimli ötən ilin sentyabr ayının 17-də MTN əməkdaşları tərəfindən həbs olunub. Məhkəmə jurnalistin ittiham olunduğu qaçaqmalçılıq və qanunsuz silah saxlama maddələrini əsaslı hesab edərək onu 8 il müddətinə azadlıqdan məhrum edib.

P.Həşimli bütün ittihamları rədd edib, Beynəlxalq Amnistiya Təşkilatı onu «vicdan məhbusu» elan edib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014




# Deputat Sevinc Hüseynovanın adı dələduzluqda hallanır

## İddialara görə, xanım millət vəkilinin qardaşı onun adından Neftçala sakinini aldadıb

**"İman 15 min pulumuzu alıb, bizə Hacıbala Abutalıbovun imzası ilə sərəncam verib. Deyib ki, bacım deputat Sevinc Hüseynovadır, evin kupçasını 10 günə düzəldəcək, 30 mini də verib kupçanı alacağıq. O gün, bu gün, İman atlı olub, biz piyada". Bu sözləri redaksiyamıza müraciət edən Neftçala sakini Şirzad Talıbov deyib.**

Onun iddiasına görə, qudası Ələkbər Abdullayevlə 2014-cü ilin martında ev almaq qərarına gəliblər. Bunun üçün ev axtarıblar. Həmin vaxt İman adlı paraolimpiyaçının ev satdığını öyrənib onunla görüşüblər. İman deputat Sevinc Hüseynovanın qardaşı olduğunu, "Bakı" kinoteatrının yaxınlığında yerləşən və satdığı evi ona prezidentin verdiyini deyib: "Gedib evə baxdıq, xoşumuza gəldi. İman bizə vizit kartını verdi. Dedi ki, mərhum prezidentlə də görüşüb. Vizit kartın üstündə də onun prezidentlə fotosu vardı. Bizim heç ağlımıza da gəlməzdi ki, hazırkı prezidentin ev verdiyi, mərhum prezidentin görüşdüyü və deputatın qardaşı olan bir şəxs bizi aylarla çıxılmaz durumda saxlayacaq".

**Şikayətçinin sözlərinə görə İ.Hüseynovun ona satdığı mənzil Xətai rayonu, Sarayevo küçəsində yerləşir:** "İmanla razılığa gələndən sonra 35 saylı notariusa getdik. İman 15 min manatımı alıb mənə 3 illik etibarnamə ilə Hacıbala Abutalıbovun sərəncamından çıxarışını verdi. Dedi ki, bacım Sevinc Hüseynova deputatdır, kupçanı alıb verəcək. 10 gün vaxt istədi. Evi 45 min manata razılaşmışdıq. Ümumi razılığımız da belə olmuşdu ki, kupça veriləndən sonra 30 min manat da ona ödənəcək. 10 gün ötdü. İmandan səs çıxmadı. Onu tapıb sözümüzü də deyə bilmirik. Evi uşaqlarıma almışam. Təmir etdirməliyəm. Amma İmanın allahsız hərəkəti məni çox pis vəziyyətə salıb. O, deputat bacısına güvənir, deyir ki, gedin kimə istəyirsiniz deyin. Mənə heç kim heç nə edə bilməz. Xahiş edirəm, dərdimizi İmanın deputat bacısına, Milli Məclis rəhbərliyinə çatdırın. İman ya pulumuzu qaytarsın, ya da kupçanı verib 30 min pulunu alsın. Bu qədər dolandırıcılıq, dələduzluq olmaz". Şikayətçi redaksiyamıza İ.Hüseynovun ona veridyi sənədlərin surətini də təqdim edib. 5 aprel 2014-cü ildə tərtib olunan etibarnamədən bəlli olur ki, Hüseynov İman Əmirəhməd oğluna Bakı Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən 503 saylı, 13.12.2013-cü il tarixli sərəncamdan çıxarışa əsasən ona verilmiş 2346-2347-ci məhəllədəki yaşayış binasının 2-ci girişinin 9-cu mərtəbəsində olan 57 saylı mənzili Şirzad Talıbova satıb.

Məsələ ilə bağlı deputat S.Hüseynovanın münasibətini öyrənməyə cəhd etdik. Lakin cəhdimiz baş tutmadı. Buna baxmayaraq, yazıda adı hallanan hər kəslə yanaşı, xanım deputatın da mövqeyini dərc etməyə hazırıq.

❑ E.MƏMMƏDƏLİYEV



# KFC Azərbaycanda Səba toyuqlarından istifadə edir

**"Səba" məhsul yığımına başlayıb. Ağcabədi və Beyləqanda yerləşən "Səba" tarlalarından toplanan məhsuldan brendin toyuqlarına yem hazırlanacaq. Bununla artıq 3 ildir ki, şirkət yetişdirdiyi toyuqları öz becərdiyi qarğıdalı dəni ilə yemləyir.**

10 ildən artıq bir müddətdə Azərbaycanda toyuq əti istehsalında lider olan "Səba" məhsullarının yüksək keyfiyyəti, dadı və sağlamlığı üçün bütün yeniliklərdən istifadə edir. "Səba" Azərbaycanda toyuqlarını öz məhsulu ilə yemləyən yeganə şirkətdir. Bunun sayəsində brend bəslədiyi toyuqların keyfiyyətinə tamamilə zəmanət verir. Qeyd etmək lazımdır ki, toyuqların sağlam qidalanması onların peyinindən "Səba" tarlalarında gübrə kimi istifadəyə imkan yaradır.

Toyuq yemi üçün "Səba"nın qarğıdalı dənini seçməsi də təsadüfi deyil. Qarğıdalı toyuğun qida rasionunun 50 faizdən çoxunu təşkil etməli olan dənli bitkilər arasında ən keyfiyyətlisidir. O, qidalılığı ilə digər dənli bitkilərdən və otdan üstündür. Tərkibinin E vitamini və karbohidratlarla zəngin olması "Səba" toyuqlarının sağlam gümrahlığını təmin edir. Məhz qarğıdalı yemi ilə qidalandığına görə "Səba" toyuqları çox ətli, sarı və sağlam yağlıdır.

Qeyd etmək lazımdır ki, "Səba" toyuqları əhalinin bütün təbəqələrinin olduğu kimi, yüksək standartlarla işləyən beynəlxalq şirkətlərin də tələblərinə cavab verir. Məşhur KFC şəbəkəsi Azərbaycanda açıldığı vaxtdan indiyədək məhz "Səba" təzə toyuqlarından istifadə edir.

# Gürcüstan Elçibəy hakimiyyətində nazir müavini olanı həbsdən buraxdı

## Daşqın Ağalarlı AXC hakimiyyəti dövründə Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsində işləyib

**Bir müddət öncə Azərbaycan Baş Prokurorluğunun müraciəti əsasında Gürcüstanda həbs olunan keçmiş Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsini tutmuş Daşqın Ağalarlı sərbəst buraxılıb. Modern.az saytının xəbərinə görə, bu barədə məlumatı D.Ağalarlının özü verib.**


Daşqın Ağalarlı

"Tam və qəti olmayan, keçici bir qərarla azadlıqdayam. İnsallah, sonra qəbul ediləcək qərarlar daha konkret və daimi olar"-deyə, D.Ağalarlı bildirib.

Qeyd edək ki, Daşqın Ağalarlı AXC hakimiyyəti dövründə Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsində işləyib. Surət Hüseynovun adamları cəbhə hakimiyyətini devirərkən onu da girov götürmüş, sonra külli miqdarda pul müqabilində buraxmışdılar.

Son vaxtlar o, Azərbaycanda külli miqdarda vergidən yayınmada ittiham olunaraq, beynəlxaql axtarışa verilmişdi.

Vergilər Nazirliyinin Analitik-informasiya şöbəsindən bu barədə saytın sorğusuna cavab olaraq bildirilmişdi ki, Azərbaycanda 4 saylı Ərazi Vergilər İdarəsində vergi ödəyicisi kimi qeydiyyatda olan "Eko İnşaat" MMC-də 24 941,04 manat əlavə dəyər vergisinin dövlət büdcəsinə ödənilməkdən yayındırılması barədə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə daxil olmuş material üzrə 2011-ci il martın 3-də Cinayət Məcəlləsinin 213.1 maddəsi ilə cinayət işi başlanıb.

Araşdırma aparılarkən məhkəmə qərarı ilə müəssisədə aparılan növbədənkənar səyyar vergi yoxlaması nəticəsində 394010,97 manat məbləğində vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması müəyyən edilib.

Məlumatda qeyd edilirdi ki, istintaq zamanı "Eko İnşaat" MMC-nin direktoru Daşqın Ağalarlının 2013-cü il avqustun 15-də CM-in 213.2.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul olunub, lakin istintaqdan gizləndiyinə görə ona ittiham elan etmək mümkün olmayıb: "Odur ki, həmin tarixdə barəsində Cinayət Prosessual Məcəlləsinin 278-ci maddəsi ilə axtarış elan edilib. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 27 avqust 2013-cü il tarixli qərarı ilə Daşqın Ağalarlı barəsində həbs-qətimkan tədbiri seçilib və cinayət işi üzrə icraat, CPM-in 53.1.3-cü maddəsinə əsasən dayandırılıb".

Məlumatda o da bildirilir ki, Daxili İşlər Nazirliyinin İnterpol-un Milli Mərkəzi Bürosundan 2014-cü il martın 3-də daxil olan məktubda beynəlxalq axtarışda olan Daşqın Ağalarlı Sarpi sərhəd keçid məntəqəsi vasitəsilə Gürcüstana daxil olarkən saxlanılıb.

Azərbaycanın Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsi Daşqın Ağalarlının respublikaya ekstradisiya məsələsinin həll edilməsi üçün müvafiq işlər həyata keçirirdi.

# İşdən qovulan məmura yeni vəzifə verildi

**Ötən il oğlunun törətdiyi avtomobil qəzasına görə işdən çıxarılan Tərtər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Vidadi Bəylərova yeni vəzifə verilib.**

"Qafqazinfo" xəbər verir ki, rayona yeni icra başçısı təyin edilən Müstəqim Məmmədovun tələbə yoldaşı olan Vidadi Bəylərov Tərtər Rayon Telekommunikasiya Qovşağının rəisi təyin edilib. Əvvəlki rəis Rüfət Qurbanov isə Kürdəmir Rayon Telekommunikasiya Qovşağının rəisi təyin olunub.

Xatırladaq ki, V.Bəylərovun yeniyetmə oğlu Elxan Bəylərli ötən il avtomobil qəzası törədib və bir nəfərin ölümünə səbəb olmuşdu. Bu fakta görə V. Bəylərov işdən çıxarılmışdı.

# DİN-dən Hüseyn Abdullayev açıqlaması: "Axtarışdadır..."

**Daxili İşlər Nazirliyi mətbuat xidməti rəisinin müavini Ehsan Zahidov sabiq millət vəkili Hüseyn Abdullayevin İnterpol vasitəsilə axtarışına xitam verilməsi barədə dediklərinə münasibət bildirib. E.Zahidov, aktual.az-a bildirib ki, Hüseyn Abdullayevin dediklərinə əlavə şərh vermək istəmir: "Lakin konkret olaraq, demək istəyirəm ki, Hüseyn Abdullayev axtarışdadır və axtarılır".**




Xatırladaq ki, Hüseyn Abdullayev "Azadlıq" qəzetinə müraciətində qeyd edib ki, Azərbaycan hökumətinin onu İnterpol vasitəsilə axtarışa verməsi faktı ilə razılaşmayaraq, uzunmüddətli yazışmalar aparıb: "Nəzərinizə çatdırıram ki, vəkillərimin uzun müddətdir apardıqları qarışılıqlı yazışmaların nəticəsində mərkəzi Fransanın Lion şəhərində olan Beynəlxalq Polis Təşkilatı- İnterpol avqust ayından mənim haqqımda axtarışı öz rəsmi veb- səhifəsindən çıxarmışdır".

YENİ MÜSAVAT
N 221 (5930) 4 sentyabr 2014



## Silsilə oğurluqlar edən azyaşlı tutulub

**Bakıda silsilə oğurluq edən şəxs tutulub. Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, Xəzər Rayon Polis İdarəsinin 1-ci və 2-ci polis bölmələrinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Bakı şəhər sakini, 2001-ci il təvəllüdlü Ruslan Qurbanov saxlanılıb.**

Müəyyən edilib ki, o, 2013-cü il oktyabrın 30-da Gündüz Bağırova məxsus, Ordubadi küçəsində yerləşən mağazadan, qapını sındırmaq yolu ilə 300 manat, dekabrın 28-də isə Binə qəsəbəsində Tofiq Məmmədovun evindən maqnitofonun səs gücləndiricilərini oğurlayıb.

Qeyd olunub ki, həmin şəxs bu il martın 1-də Binə qəsəbəsində Hamlet Ağayevə məxsus mağazadan mobil telefonu və içərisində 500 manat olan pul kisəsini, martın 22-də Mərdəkan qəsəbəsində yerləşən mağazadan orada işləyən Aybəniz Qədimovanın içərisində 325 manat, 1 ədəd boyunbağı və 2 ədəd üzük olan pul qabını, aprelin 7-də Binə qəsəbəsi südçülük sovxozunda Xalıd Qafarova məxsus mağazadan plastik qapını sıxıb açmaqla 280 manat, ərzaq malları və danışıq kartları, aprelin 27-nə keçən gecə, Cəmşid Pənahova məxsus Mərdəkan qəsəbəsində yerləşən mağazadan qapının kilidini sındırmaq yolu ilə 288 manatı, və tütün məmulatlarını, iyunun 24-nə keçən gecə isə Bahadur Abdullayevə məxsus Hüseynov küçəsində yerləşən mağazadan plastik qapını açma yolu ilə pul, ət mağazasının qarşısından isə bir baş iri buynuzlu heyvan oğurlayıb.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Tovuzda sahibkar gözdən əlili döyüb

## Arif Ələsgərov: "Yaxamdan tutub sillə-təpiyin altına saldı məni..."

**Tovuz rayon Aşağı Quşçu kənd sakini, I qrup gözdən əlil Arif Ələsgərov redaksiyamıza müraciət edərək sahibkar Seymur Cəfərovun tərəfindən incidildiyini, hətta döyüldüyünü bildirib. O deyib ki, sahibi olduğu çay evinin yeri ona 2007-ci ildə Tovuz Rayon İcra Hakimiyyəti tərəfindən verilib. A.Ələsgərov deyib ki, səhhətinin acınacaqlı olduğuna baxmayaraq hər gün işinin başındadır, ailəsinin dolanışığını ordan çıxarır.**

Hazırda işlətdiyi çay evini 2009-2010-cu ildə kasıblıqla, borc-xərclə tikib başa gətirdiyini deyən Arif iddia edib ki, bu ilin mart ayının 14-də həmkəndlisi, qonşusu Seymur Cəfərov naməlum səbəblərdən həmin çay evinin arxa qapısını bağlayıb. Arif Ələsgərovun verdiyi məlumata görə, həmin qapı Seymur Cəfərovun çöl torpağının başından və onun çay evinin arxa tərəfindən keçən yola çıxır.

O qeyd edib ki, bir nəfər uşaqla köməkləşib qapını açıb. Şikayətçinin dediyinə görə, Seymur bu hərəkətdən qəzəblənib və camaatın gözü qabağında onu döyüb, təhqir edib, şərəf və ləyaqətini alçaldan sözlər işlədib.

"Qapını açandan bir az sonra, təxminən axşam 7-8 radələrində mənə dedilər ki, səni çağırırlar. Öncə qardaşım getmək istədi, qoymadım. Özüm getdim. Bayıra çıxan kimi Seymur Cəfərov "sənin kor gözünü..." deyə, təhqiramiz sözlərlə məni söydü. Sonra yaxamdan tutub sillə-təpiyin altına saldı məni. Əlində də açar var idi. Gözüm görmədiyinə görə müqavimət göstərə bilmədim. Sadəcə, dedim ki, "Seymur, bunlara görə cavab verəcəksən. Qayıtdı ki, prokuror mənim dostumdu, narahat olma".

**Arif Ələsgərov bildirib ki, bu hadisədən sonra adıçəkilən şəxsi polisə verməyinə baxmayaraq barəsində heç bir tədbir görülməyib. Bununla bağlı Baş Prokurorluğa da müraciət etdiyini deyən Arif deyib ki, onlar da işi bir ay 21 gün gecikdirəndən sonra məcbur qalıb 128-ci maddə ilə (qəsdən sağlamlığa yüngül zərər vurma) cinayət işi açıblar.**

"Ona çox yüngül maddə ilə cinayət işi açıblar. Seymurun əməli açıq-aşkar xuliqanlıqdır. İşi bir ay 21 gün gecikməsinə də baxmayaraq istintaqdan yox, təhqiqatdan başlayıblar. İndi o da adı xuliqana çıxmasın deyə, məhkəməyə iddia ərizəsi verib ki, guya mənim obyektim onun torpağına keçib. Ancaq əlimdə olan dövlət sənədləri təsdiqləyir ki, mən onun torpağına keçməmişəm». O, təzyiq yolu ilə şahid Etibar Qurbanovun ifadəsinin dəyişdirildiyini, məhkəmədə, öncələr verdiyi ifadənin ziddinə danışdırıldığını da deyib.

"Getdim Bakıya şikayətə. İşi Daxili işlər Nazirliyinin İstintaq və Təhqiqat idarəsinə verdilər. Orada da iş dondurulub. Təhqiqat, istintaq işi aparılmır. Sadəcə, bircə dəfə hadisə şahidlərindən Etibar Qurbanovu çağırıblar. O da ifadəsinə düzəliş edib ki, mən gördüklərim faktdır, Arifi döyüblər, təhqir ediblər və birinci ifadəsində yalan məlumat verib".

Arif Ələsgərov bütün faktlara, döyüldüyünə dair əlindəki fotolara, Ağstafa Rayon Mərkəzi Xəstəxanasından aldığı ekspertiza rəyinə, şahid sözlərinə baxmayaraq işin araşdırılmamasından narahatdır. O, yuxarı instansiyalara müraciət edərək bu barədə ədalətli qərar çıxarılmasını xahiş edib. Bildirib ki, Seymurun mağazaları, çay evi, çörək fabriki kimi bir-birindən çox gəlir gətirən obyektləri, onun isə sadəcə bir çay evi olduğundan heç kim işə diqqət göstərmək istəmir.

"Mən haqqımı tələb edirəm. O, mənim sağlamlığıma xətər yetirib. Şəxsiyyətimi alçaldıb. Üstəlik, işlətdiyim çay evinin arxa qapısını heç bir haqqı olmadan bağlayıb. Ancaq kimsə diqqət göstərmək istəmir. Gözdən əlil adamam. Ailəmə, övladlarıma yalnız bu yolla çörəkpulu apara bilirəm. Seymur kimiləri isə özünün sayı-hesabı olmayan qazanc yeri, biznes sahəsi olmasına baxmayaraq bunu belə çox görürlər mənə. Görünən odur ki, məmurlarımız da onların dediyini deyirlər. İnsanlıq bu qədərmi ölüb?"

❑ **Hikmət Carçılı Orhun, Tovuz**






AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

Bakı AZ 1014, Kiçik Dəniz küç., 4
Tel.: (994 12) 598 50 94, Faks: (994 12) 497 06 93
http://www.health.gov.az elektron poçtu office@health.gov.az

12.08.09 № 2-44/8-6636

ET Travmatologiya və Ortopediya İnstitutunun direktoru V.Verdiyevə

Tovuz r. Əlibəyli kəndi
Murad Aslanova

Vətəndaş M.Aslanovun müalicəsinə kömək göstərilməsi barədə Milli Məclisdən Səhiyyə Nazirliyinə ünvanlanmış ərizəsini Sizə göndərərək, xəstənin tibbi yardımla təmin olunmasını xahiş edirik.

M.Aslanovun nəzərinə: Sizə aparılmış müayinələrin nəticələri ilə qeyd olunan tibb müəssisəsinə müraciət edə bilərsiniz.

Qoşma: 1 vərəq 1-ci ünvana

Tibbi yardımın təşkili şöbəsinin müdir əvəzi — A.Kərimov











## Bərdədə müəllim oğlunun borclarına görə intihar etdi

**Bərdə rayonunda müəllim intihar edib. Qafqazinfo.az xəbər verir ki, uzun illərdir Bərdədə yerləşən Laçın rayonu Ağanus kənd orta məktəbində müəlllim işləyən Eldar Əliyev Xəqani kücəsində yerləşən evinin həyətində özünü asıb. Özünü asan təhsil işcisinin küllI miqdarda borcu olduğu bildirilir.**

Rayon sakinlərinin verdiyi məlumata görə, onun N saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqcu işləyən oğlu Ceyhun Əliyev bir necə bankdan böyük məbləğdə kredit götürüb. Övladının borclarını verə bilməyən ata cıxış yolunu intihar etməkdə görüb.

YENİ MÜSAVAT
N 221 (5920) 4 sentyabr 2014

# Ayağını uzadıb pul qazananlar...

## Dünyanın ən rahat "çörək qazanma" üsulları haqda nə bilirik?











**Adətən uzunmüddətli istirahətlərdən sonra insanların öz iş yerləri barədə düşüncələrində də bir qədər dəyişiklik olur. Məsələn, kimsə əvvəlki qaydada çox çalışmaq istəmir, kimsə yeni iş yeri axtarışına başlayır. Və bu ərəfədə dünyadakı ən maraqlı iş yerlərinin siyahısı köməyə gəlir. Məlum olur ki, çox az əziyyət çəkməklə heç də az olmayan gəlir sahibi olmaq mümkündür.**

### Biri qolf topu yığaraq pul qazanır, o biri yeməyə uyğun şərab seçməklə...

"Shot girls" - bu, Amerikada 20 yaşlarında olan gənc qızlar üçün ideal peşə sayılır. Onlar gecədə 300-600 dollar qazanırlar. "The Wall Street Journal"ın xəbərinə görə, qızlar barda hər içki hesabından 25 sent-20 dollar gəlir götürürlər.

**Dəniz aşpazı -** Avstraliyada dəniz təcrübəsi olanlar ildə 187 min dolları qazana bilir. Buna il sonundakı bonuslar, açıq dəniz ödəmələri, dənizaltı xidmətləri, məbləğini də əlavə edəndə yaxşı bir qazancdan danışmaq olar.

**İnci dalğıcı -** dalğıclıq təhlükəli işlər kateqoriyasına daxildir. Amma inci tapmaq üçün suya girən dalğıclar gündə 1216 dollar qazana bilir. Söhbət açıq dənizlərdən gedirsə, bu halda açılış 500 dollardan başlayır. Qaz və neft dalğıcı - O qədər əyləncəli sayılmasa da, dərin dənizlərin ən qazanclı işlərindən sayılır. Meksika körfəzində üzən dalğıclar ildə 80 min dollara qədər qazana bilir.

**Usta (şərab qarsonu) -** yüksək səviyyəli restoranlarda səriştəli şərab qarsonları müştərilərin yeməklərinə ən uyğun olan şərabı seçməklə ildə 80-160 min dollar pul qazanırlar.

**Təyyarə icraçısı -** əgər macəranı və yüksək riskli işləri sevirsinizsə, bu iş barədə də düşünməyə dəyər. Bu işi görənlər hər təyyarəyə görə 6-10 faiz haqq alır və onu satır. Təyyarə qiymətini nəzərə alanda, bu, heç də az pul deyil.

**Kəllə ovçusu -** bu adamların vəzifəsi isə həbsxanadan qaçanları və axtarışda olan kəsləri tapıb, yenidən həbsə göndərməkdir. Onlar da ildə orta hesabla 45-100 min dollar pul qazana bilirlər.

**Ağ pişik ovçusu -** düşünüldüyünün əksinə olaraq bunlar küçədə pişik qovan insanlar deyillər. Bu ovçular virtual dünyada təhlükəsizlik boşluqlarını tapmaq və sertifikatsız proqramları təyin etmək üçün ildə 123 900 dollar gəlirə sahib ola bilirlər.

**Dublyaj -** filmlər və radio reklamlarını səsləndirərək 5 dəqiqə üçün 325 dollar qazana bilən insanlar da var. Onların illik gəliri isə 50-80 min dollardır.

Yeni il ağacı alverçisi - bu işi görən tacirlər, ağacları yetişdirən şəxslərlə razılaşdıqdan sonra bunları şəhərdəki pərakəndəçilərə çatdırır. İstehsal müddətinin hamısını idarə etdikləri təqdirdə əldə edilən gəlir artır.

**Qolf topu yığıcısı** - bu peşənin daşıyıcıları isə golf sahələrində olan su gölməçələrində yığılan topları yığmaqla məşğuldular. Bu işi edənlər əksəriyyətlə yığdıqları top başına ödəniş almaq üçün daha çox islanmalıdır. Bu isə gün sonunda daha çox qazanmaq mənasına gəlir.

### Pulla ağlayanlar da var, nikbinlik satanlar da...

Telebe.az saytının araşdırmasına görə, siyahıda bundan da maraqlı peşələr var.

**Corab poçtu.** Layihəni Mamie Lichti və Marcel Roth həyata keçirib. Onun müştəriləri sahibkarlar və müxtəlif səviyyəli menecerlərdir. Biznesmenlər qərara alıb ki, corabın məktubla satışı ideyası onlara uğur gətirəcək. Qeyri-rəsmi məlumata görə, 1999-cu ildən 2006-cı ilə kimi onların şirkəti 25 ölkədə təxminən 120.000 corab satıb. İllik gəlir nə az, nə çox, düz 1.5 milyon dollardır.

**Nikbinlik satışı.** Berto Jacobs və onun qardaşı John qərara alıblar ki, pozitiv münasibət də satmaq mümkündür və bu çox yaxşı biznes ola bilər. Buna görə də onlar yeni geyim brendi yaradıblar: "Life is good ("Həyat yaxşıdır)". İlkin olaraq 1984-cü ildə, şüar və loqosu olan 48 nümunə köynəklər hazırlanıb və Bostonda satılıb. Qardaşlar nikbinlik satışının insanlara faydalı olacağını düşünüblər və bu ideya onları zənginliyə yüksəldib. Bu gün "Life is good" brendi yalnız Amerikada satılmır. Onu həmçinin 27 ölkədə tapmaq mümkündür. Mağazaların sayı yüzlərlədir.

**Qadınlar komandası.** Yaradıcısı Kerry Killingdir, gəliri ildə 1 və ya 0.5 milyondur. Şirkət "Woman's Touch" - ("Qadın toxunuşu") bir sıra sifarişləri qəbul edir. İş təkcə, rəsm, suvaq deyil, həmçinin dülgərlik, santexnika və elektrik işlərindən də ibarətdir. Şirkət qadınların əməyindən faydalanır və bu işlər üçün bacarıqlı, güvənilə bilən və cəsarətli qadınlar tələb olunur. Təsisçilərin məqsədi qadınlar üçün rahat və inanılan bir şirkət qurmaqdır. "Woman's Touch" şirkəti təkcə binaların təmirini deyil, həmçinin onların özülü, layihələrin hazırlanması və qəbul edilməsi, əlaqələrin yaradılması və dekorasiya işlərini də müştərilərinə təklif edir. Hətta lazımi avadanlıqların çatdırılması da qadınların üzərinə düşür.

**Evdə məşqçi.** Amerika idman salonlarına getməyə tənbəllik edən, köklükdən əziyyət çəkən insanlarla doludur. Lauren Lauper belə bir ideya fikirləşib: "Your mobile gym" ("Gəzən gimnastika"). Məqsəd idmanla məşğul olmaq istəyən, lakin tənbəllik və vaxt baxımından əziyyət çəkən qadınlara yardım etməkdir. Müştəri sadəcə zəng etməklə peşəkar məşqçi tələb edə bilər. Yeri gəlmişkən, qadın məşqçi evinizə gələ və fərdi olaraq sizə dərsləri keçə bilər.

**İnternetdə həkim.** Bu xidmət Jay Parkinson tərəfindən təqdim olunub. Bu ideyanı o, insanların sağlamlığı üçün fikirləşib. Amerikada tibbi xidmət həddindən çox baha olduğundan, həkim müasir texnologiya və internetin xidmətindən istifadə edərək, öz xəstələri ilə virtual olaraq görüşməyi qərara alır Bu, e-mail, video-konfranslar vasitəsilə həyata keçirilir. Virtual həkim ildə 500 min dollar qazana bilir.

**Pulla ağlama.** Türkiyədə yaradılan bu qurumda toplanan insanlar pul müqabilində ağlayırlar. Saatı 300 TL-yə (130 manat) başa gəlir. Qurumun aylıq büdcəsi 100-150 min TL təşkil edir.

**Qarışqa tutmaq.** Mağazalarda qarışqaların satılmağa başlanması bu sənəti daha da məşhurlaşdırdı. Təbiətdəki qarışqaları tutaraq, yaxşı pul qazanmaq mümkündür. Xüsusən də dişi qarışqaları tutmaq çox gəlirlidir.

**❑ Sevinc TELMANQIZI**







## Bakıda dəhşətli yol qəzası: 6 ölü

### Kamran Əliyev: "Dövlət qəzaların sayının azalması üçün hər şey edir"

**Sentyabrın 3-ü gecə saatlarında Bakının Sabunçu rayonunda 6 nəfərin ölümü ilə nəticələnən dəhşətli yol-nəqliyyat hadisəsi baş verib. APA-nın məlumatına görə, qəza Sabunçu rayonunun Zabrat qəsəbəsi ərazisində qeydə alınıb. "Mercedes" markalı avtomobilin "VAZ-2106" markalı avtomobillə toqquşması nəticəsində 6 nəfər ölüb, 1 nəfər yaralanıb.**

Məlumata görə, ölənlərin hamısı VAZ-2106" markalı avtomobildə olublar. "Mercedes"in sürücüsü ağır xəsarət alaraq xəstəxanaya yerləşdirilib. Sabunçu Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, qəza zamanı "VAZ-2106" markalı avtomobildə olan Murad İman oğlu İmranov, Mürvət Mehman oğlu Baxşıyev, Ramin Hafiz oğlu Qasımov, Eyyub Araz oğlu Cəfərov, Mehman Kamran oğlu Novruzov aldığı xəsarətlərdən hadisə yerində ölüblər. Qəza zamanı ölən digər sərnişinin şəxsiyyəti hələlik məlum deyil. Ölənlərdən birinin azyaşlı olduğu bildirilir.

**Baş Dövlət Yol Polis İdarəsinin şöbə rəisi Kamran Əliyev bu dəhşətli qəzadan danışdı. K.Əliyev "Yeni Müsavat"a bildirdi ki, dövlət qəzaların sayının azalması üçün hər şey edir:** "Ancaq sürücülər də gərək məsuliyyətli olsun, sürət həddini aşmasın. Mən həmin qəzanın təfərrüatlarını bilmirəm. Amma bildiyim odur ki, 6 nəfər qəzada ölüb. Yol boş olan kimi yüksək sürətlə sürürlər. Sürücülər diqqətli və məsuliyyətli olmalıdır, sürət həddini aşmamalıdır".

Bu qəza başqa bir nüansı da xatırlatmağa zərurət yaratdı. Statistikaya da nəzər yetirəndə məlum olur ki, belə ağır qəzaların əksəriyyəti "VAZ-2106" markalı avtomobilləri idarə edənlər tərəfindən törədilir. Sovet istehsalı olan bu maşınlar artıq can almaqda trafik terrorçusuna çevriliblər.

Təbii ki, bunu birmənalı olaraq təkcə sovet markalı maşınların üzərinə yıxmaq da olmaz. Bahalı avtomobillər var ki, daha dəhşətli qəzalar törədirlər. Amma statistika baxımından yanaşanda "Jiquli" markalı avtomobillər "ölüm maşını"na çevriliblər.

**❑ E.SALAMOĞLU**

# YENİ MÜSAVAT

Son səhifə

N 221 (5930) 4 sentyabr 2014


# Atla 10 ölkə gəzdi



Kanadanın Kalqari şəhərində yaşayan Filipe Masetti adlı oğlan at üstündə 10 ölkə gəzərək, 16 min kilometr qol qət edib. Uşaq yaşlarında Cənubi Amerikadan ailəsi ilə birlikdə Kanadaya köçən oğlan narkotiklə mübarizəyə dəstək olmaq üçün belə bir addım atdığını deyib. 2012-ci ilin iyun ayında başladığı səfərdə Bruiser, Frenchie və Dude adlı atları ona yoldaşlıq edib. Meksika və Braziliya kimi ölkələri gəzən Masetti yaşadığı macəranı filmə çevirmək istədiyini deyib. Səfər müddətində bir neçə narkotik ticarətçisi ilə görüşən, onların qonağı olan oğlan bir çox maraqlı hadisənin şahidi olub. Masettinin hazırlayacağı sənədli film gələn il yayımlanacaq.



## Oyananda çincə danışırdı

Keçirdiyi avtomobil qəzasından sonra bir həftə komada qalan avstraliyalı Ben Bahonın oyandığı zaman dilini unutduğu məlum olub. Həkimlərin müayinələrindən sonra məlum olub ki, gənc oğlan öz dilini tamamən unudub və Çin dilində danışmağa başlayıb. Ailəsini çox sevdiyini və qısa müddət sonra düzələcəyini deyən oğlan həkimləri də şoka salıb. Məlumatlara görə, Bahon məktəbdə oxuyarkən Çin dilini öyrənib. Lakin heç vaxt normal danışa bilməyib. Daha sonra Şanxayda oxumağa və işləməyə başlayıb. Məhz bu səbəbdən də komadan çıxanda ana dilini unutsa da Çin dilində danışa bilib. Bahon komadan çıxdıqdan 3 gün sonra öz dilini xatırlamağa başlayıb.

Ötən il də amerikalı bir əsgər qəzadan sonra komaya düşmüş, oyandıqdan sonra isveç dilində danışmağa başlamışdı.



## Milyonda bir ehtimal

İngiltərənin Milton Keynes şəhərində nigeriyalı zənci qadınla avropoid ingilisin ağ dərili və yaşıl gözlü övladı dünyaya gəlib. Cütlük isə uşağın rəngi ilə yox, səhhəti ilə maraqlandıqlarını bildirib. Zənci qadının ağ uşaq doğması xəstəxanada da təəccüb və maraqla qarşılanıb. Həkimlər isə bu cütlüyün bir daha ağ övlada sahib olma ehtimalının olmadığını, bu cür gen kombinasiyalarının təkrarlanmayacaq qədər nadir hadisə olduğunu bildirib.

# Duzlu su ilə işləyən avtomobil

Duzlu su ilə işləyən avtomobil istehsal olunub. "NanoFlowcell AG" adlı şirkət avtomobili Liviyadakı zavodda hazırlayıb. Ekologiyanı korlamayan bu avtomobil idman növündədir. "Quant e-Sportlimousine" adı verilən 5,25 metr uzunluğunda və 2,2 metr enindəki 4 kreslolu avtomobilin saatda 350 kilometr sürətə çata bildiyi açıqlanıb. 920 at gücündəki avtomobilin 2014 Cenevrə sərgisində sərgiləndikdən sonra Avropa Birliyi tərəfindən nəqliyyatda istifadəsi üçün icazə veriləcəyi də məlum olub. Mütəxəssislər avtomobilin mühərrikinin hidrogenlə işləyən yanacaq batareyalarına bənzədiyini, ancaq enerjini saxlamaq üçün istifadə edilən mayenin duzlu su olduğunu söyləyib. 200 litr su saxlama tutumu olan avtomobilin bir anbar su ilə təxminən 600 km yol qət etdiyi açıqlanıb. "NanoFlowcell AG" səlahiyyətliləri avtomobilin bazara çıxacağı vaxtı hələlik müəyyən etməyiblər. Bu avtomobilin qiymətinin 1,7 milyon dollar olacağı təxmin edilir.






## 30 il sonra günahsız olduqları anlaşıldı

Amerikada cinayətdə günahlandırılan iki nəfərin suçsuz olduqları 30 il sonra məlum olub. BBC-nin xəbərinə görə, qismən əqli problemləri olan iki qardaş 11 yaşlı qızı öldürməkdə günahlandırılırdılar. 50 yaşlı Henri və 46 yaşlı Leon Brovn qardaşlarının cinayəti törətdiklərinə dair heç bir izə rast gəlinməsə də məhkəməyə çıxarılıblar. Həmin dövrdə 19 yaşı olan Henriyə edam, 15 yaşlı Leona isə ömürlük həbs cəzası verilib. Bir neçə gün əvvəl isə 30 il öncə öldürülmüş qızın qatili təsadüfən tapılıb. Hələ də həyatda olan 74 yaşlı kişi polislər tərəfindən nəzarətə götürüldükdən sonra hər şeyi etiraf edib. Ömürlərinin 30 ilini həbsxanada keçirən qardaşlar isə azadlığa çıxıblar.




QOÇ - Özünüreklam prinsiplərindən uzaq olun. Çünki indi belə adamlara müsbət nəzərlərlə baxmırlar. Qarşı tərəfin ədalətli fikirləri ilə razılaşın. Hər hansı mübahisəyə isə lüzum yoxdur.

BUĞA - Əsəblərinizi cilovlaya bilsəniz, heç bir qanqaraçılığı olmayacaq. Qərar çıxarmamışdan əvvəl yaxşıca götür-qoy edin. Uzaqda yaşayan qohumlarınızla əlaqə saxlayın.

ƏKİZLƏR - Ümumi çalarlarına görə uğursuz gündür. Ətrafınızda olanlar əsəblərinizi tarıma çəkə bilər. Odur ki, hər bir situasiyada öz mövqeyinizi qabartmamalı, emosiyalara uymamalısınız.

XƏRÇƏNG - Ehtiyatlı olun, aldanma ehtimalınız var. Etibar etdiyiniz adamlar tərəfindən hiyləgərliyə tuş gələ bilərsiniz. Yaxşı olar ki, mühüm planlarınız haqda kiməsə məlumat verməyəsiniz.

ŞİR - Kifayət qədər yorucu gündür. Əgər reallıq imkan versə, bütün vaxtınızı evdə və ya təbiət qoynunda keçirin. Qida və yuxu rejiminizə fikir verin. Ağır fiziki işlərdən uzaq olun.

QIZ - Sağlıq durumunuza xüsusi diqqət yetirin. Əks təqdirdə, həkimə müraciət etməli olacaqsınız. Özünüzü stressli vəziyyətdən qoruyun. Tənhalığa qapılmaqdansa, dostlarınızla bir arada olun.

TƏRƏZİ - Göy qübbəsi uğurlar vəd edir. Sadəcə, siz də özünüzü bu vəziyyətə hazırlamalısınız. Ailə-sevgi münasibətlərində xoş ovqat qazanacaqsınız. Pulsuzluğa görə narahat olmayın.

ƏQRƏB - Hər mənada düşərli gündür. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə bəxtiniz gətirə bilər. Günün ikinci yarısında normal qazanmaq ehtimalınız da var.

OXATAN - Astroloji göstəricilərə görə maddi durumunuzda müəyyən irəliləyişlər mümkündür. Bununla yanaşı, gözləmədiyiniz istiqamətdən sizə qarşı təxribat da ola bilər. Tədbirli olun.

OĞLAQ - Gecə saat 03:14-dən Ay bürcünüzdə qərar tutduğundan müəyyən gərginlik müşahidə oluna bilər. İlk növbədə səhhətinizə fikir verin. İşgüzar sövdələşmələrdə iştirakınız isə olduqca vacibdir.

SUTÖKƏN - Fəaliyyətlə bağlı xoşagəlməzliklər görünür. Bu amili nəzərə alıb ciddi işlərin həllini təxirə salın. Sevgi və digər münasibətlərdə isə vəziyyət xeyrinizədir. Uzaq yola çıxmaq olar.

BALIQLAR - Əyləncə və gəzintilərə çox da aludə olmayın. Bu gün işgüzarlığınızı artırmalısınız. Yeni planlarınızı həyata keçirmək üçün bəzi nüfuzlu şəxslərlə görüşməyiniz vacibdir. Çağırışlara gecikməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikanın yeni qorxusu



Amerikalı araşdırmaçılar əsasən Asiya qitəsində yaşayan, lakin Amerikaya da yayılan bir çəyirtkə növünün şərq əyalətlərində yayıldığını açıqlayıblar. İnsan ətindən başqa hər şeyi yeyən diestrammena asynamora adlı çəyirtkə növünün ictimaiyyət üçün faydalı olacağı da deyilir. Asiyada yaşayan çəyirtkələrin Amerikaya nə vaxt gəldiyi isə bilinmir. Çəyirtkələrin təbiətə necə təsir edəcəyi bilinmir. Mütəxəssislər onun yerli canlı orqanizmləri məhv edəcəyindən qorxurlar.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.600